# YENİ AZƏRBAYCAN

04 iyun 2026-cı il, cümə axşamı
№ 095 (7162)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

## Prezident Mərkəzi Bankın yeni binasının açılışında...



Bax səh. 2

## Dünyaya Azərbaycan nümunəsi

Bax səh. 2



Bax səh. 3

## Strateji tərəfdaşlığı möhkəmləndirən mühüm addım

## Yaxın tariximizin ibrət dərsi

Gəncə qiyamından 33 il ötür

Bax səh. 4



Bax səh. 5

## “Heydər Əliyev və Azərbaycan memarlığının inkişaf strategiyası”

## Daha güclü kibertəhlükəsizlik sistemi

Bax səh. 3

## İslahatlar prosesində siyasi partiyaların fəal iştirakı təqdirəlayiqdir

Bax səh. 4

## Keçmiş məcburi köçkünlərin mülkiyyət hüququ bərpa olunur

Bax səh. 5

## Bakıda Amritsar hadisələri müzakirə olunub

Bax səh. 6

## Rusiya-Ukrayna müharibəsini bitirməyən səbəblər



Bax səh. 7

## ABŞ-İran müharibəsi yenidən alovlanır?



Bax səh. 7

# Prezident Mərkəzi Bankın yeni binasının açılışında...





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzi Bankın yeni inzibati binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Bankın sədri Taleh Kazımov dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verdi.

Yeni bina paytaxtın Heydər Əliyev prospektində yerləşir. Müasir şəhərsalma prinsiplərinə uyğun inşa edilmiş bina yüksək funksionallığa və qabaqcıl texnoloji göstəricilərə malikdir.

Prezident İlham Əliyev milli pul nişanlarının konseptual yanaşmasının, dizayn xüsusiyyətlərinin və texnoloji inkişaf xəttinin müasir təqdimat üsulları ilə nümayiş olunduğu sərgiyə baxdı.

Bildirildi ki, sərgidə milli pul nişanlarının tarixi, inkişaf mərhələləri, dizayn və mühafizə elementləri əks olunub.

Bina 35 mərtəbədən ibarətdir, burada ümumilikdə 1300 nəfərlik iş sahəsi, konfrans və mətbuat zalları, müxtəlif təlim və toplantı otaqları var.

Yeni binanın layihələndirilməsi zamanı əlçatanlıq və inklüzivlik prinsiplərinə xüsusi diqqət yetirilib, fiziki məhdudiyyətli şəxslərin binaya rahat və təhlükəsiz şəkildə girişinin, həmçinin sərbəst hərəkətinin təmin edilməsinə imkan verən infrastruktur yaradılıb.

Binada rəsmi görüş və toplantılar üçün 25 otaq nəzərdə tutulur. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub.

Yüksək keyfiyyət, təhlükəsizlik və dayanıqlı inkişaf standartlarına cavab verən binada müasir texnologiya və informasiya sistemləri də quraşdırılıb.

Burada, həmçinin əməkdaşların asudə vaxtının səmərəli təşkili məqsədilə istirahət məkanı yaradılıb, 340 nəfərlik yeməkxana da onların ixtiyarına veriləcək.

Müxtəlif tədbirlərin və təqdimatların keçiriləcəyi 240 nəfərlik konfrans zalında isə hər bir şərait mövcuddur.

Gecə saatlarında binanın vizual tanınmasını təmin edən multimedia fasad sistemi müxtəlif işıq ssenarilərinin və proyeksiyaların tətbiqinə imkan verir. Fasad da daxil olmaqla, ərazinin və binanın işıqlandırılması hərəkət sensorlu LED texnologiyası ilə təchiz olunub. Bu isə öz növbəsində günün işıqlı saatlarında elektrik enerjisinə qənaət etməyə imkan verir.

# Dünyaya Azərbaycan nümunəsi

## İlham Əliyev: Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq




Hazırda dünyada izlənilən proseslər kədərli təəssüratlar yaradır. Ayrı-ayrı milli dövlətlər təzyiqlərlə üzləşirlər. Bəzi ölkələr dərin sosial-iqtisadi böhran içindədirlər və ictimai-siyasi sabitliyin pozulmasından ciddi əziyyət çəkirlər. Yaxın Şərq, Şərqi Avropa isə müharibə alovuna bürünüb, iş yerləri, mülki infrastruktur dağıdılır, insanlar doğma ev-eşiklərini tərk etmək məcburiyyətində qalırlar.

Dünyadakı belə təzadlı mənzərə fonunda Azərbaycan sabitlik və inkişaf adası kimi fərqlənir. Ölkəmiz ümummilli məqsədlərinə doğru inamla irəliləyir, cəmiyyətin, xalqın daha firəvan gələcəyə böyük inamı var. Artıq uzun illərdiir ki, respublikada möhkəm iqtidar-xalq birliyi hökm sürür və milli güc inkişaf naminə səfərbər edilir. Azərbaycanın inkişafı, sosial, iqtisadi, hərbi, xarici siyasəti nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə edilən zaman onlar bir çox üstünlüklərə yol aça bilər. Ölkəmizin son 30 ildə keçdiyi yol eyni problemlərdən əziyyət çəkən ölkələr üçün bir örnəkdir.

Azərbaycanın qısa müstəqillik tarixində qazandığı uğurların təməlində dayanan əsas amil isə aparılan ardıcıl və məqsədyönlü siyasətdir. Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin açılış tədbirindəki çıxışında öz qənaətlərini ifadə edərək bildirib ki,  Azərbaycan çox bariz nümunədir. Bütün bunlar göstərir ki, ölkənizi beynəlxalq sərmayələrə açıq edəndə, milli maraqlara əsaslanan müdrik siyasət aparanda siz uğur qazanırsınız. "Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq. Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı", - deyə dövlətimizin başçısı vurğulayıb.

**Azərbaycanın inkişafının bünövrəsi uğurlu enerji siyasəti ilə qoyulub**

Bəhs olunan çıxışında Prezident İlham Əliyev Azərbaycanın inkişafının bünövrəsinin uğurlu enerji startegiyası ilə qoyulduğuna xüsusi diqqət çəkib.Dünyada neft-qaz resursları ilə zəngin olan dövlərtlərin sayı çoxdur.. Lakin onların hamısı inkişafa nail ola biliblərmi? Təəssüf ki, yox!. Dünya təcrübəsindən də göründüyü kimi, karbohidrogen ehtiyatlarının zənginliyi heç də bütün hallarda sərvət sahibi olan ölkələrin xalqları üçün xoşbəxtlik, firəvan həyat tərzi anlamına gəlmir. Buradan da o nəticə hasil olur ki, əsas məsələ yerin təkində, dənizin dibində sərvətlərə sahib olmaq yox, həmin sərvətlərdən necə istifadə etməkdədir.

Bu baxımdan Azərbaycanda ulu öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu enerji siyasəti təqdirəlayiqdir. Prezident İlham Əliyev çıxışında müstəqilliyimizin ilk illərinə ekskurs edib. Ölkədə sosial-iqtisadi vəziyyət ağır idi. Gündəlikdə dayanan problemlərin həllinə vəsait tapılmırdı. Həmin çətin dönəmdə Rezident İlham Əliyevin bildirdiyi kimi, neft və qaz bizim üçün müstəqil ölkə kimi yaşamağın yeganə yolu oldu. O dövrdə ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün uğurla davam etdirilən yeni neft strategiyasının əsasında ölkəmizin və xalqımızın milli maraqları dayanır. Eyni zamanda, ölkəmizin reallaşdırdığı enerji siyasəti ədalət prinsipinə əsaslanır. Məhz bu iki məqam respublikamızın enerji siyasətində böyük uğurlar qazanmasını şərtləndirir. Bir tərəfdən  neft gəlirləri ölkədə strateji önəm daşıyan layihələrin reallaşdırılmasına, insan kapitalının formalaşmasına, sosial rifahın yaxşılaşdırılmasına yönəldilir, digər tərəfdən də etibarlı tərəfdaş, məsuliyyətli və ləyaqətli dövlət kimi Azərbaycanın müsbət beynəlxalq imici möhkəmlənir.

Ulu öndər Heydər Əliyevin böyük səyləri hesabına 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" ölkəmizin yeni enerji siyasəti üçün başlanğıc oldu. Həmin müqavilə Xəzərdəki "Azəri-Çıraq-Günəşli" yatağının birgə işlənməsini əhatə edirdi. "Əsrin müqaviləsi"nin imzalanması ilə neftçıxarma tariximizdə yeni səhifə açıldı. Kontraktın texniki parametrləri kifayət qədər genişdir. Dəyəri 7,4 milyard dollar olan "Əsrin müqaviləsi"ndə dünyanın 7 ölkəsini təmsil edən 11 beynəlxalq neft şirkəti iştirak edib. İlkin hesablamalara görə, "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olsa da, sonralar yeni qiymətləndirmələrə əsasən, neft ehtiyatı 1,072 milyard ton həcmində müəyyən edilib. "Əsrin müqaviləsi" sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə daha 30-dan çox sazişin imzalanması üçün yol açdı.

Hazırda Azərbaycan neft bumunun ikinci fazasını yaşayır. Belə ki, bir çox şirkətlər ölkəmizdə yeni layihələrə qoşulurlar. 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması ilə "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilə qədər uzaldılıb. Yeni Sazişin imzalanması ilə böyük ehtiyatlara malik "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsində yeni mərhələ başlayıb. Bəhs olunan Sazişdə də Azərbaycanın milli maraqları maksimum dərəcədə nəzərə alınıb. Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faiz qaldırılıb, razılaşmaya əsasən, tərəfdaş şirkətlər Azərbaycan Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəməyi öz öhdələrinə götürüblər.

Azərbaycanın müasir çağırışlar və reallıqlar nəzərə alınmaqla hazırlanan yeni neft strategiyasında enerji nəqli marşrutlarının şaxələndirilməsi əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib. Marşrutların şaxələndirilməsi bu gün Azərbaycanın müstəqil enerji siyasəti həyata keçirməsini şərtləndirən çox mühüm amil qismində çıxış edir.

**Bu gün ölkənin iqtisadi fəaliyyəti çox müsbətdir**

"Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik". 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi bu fikirdə göstərilən hədəflərin hər biri bu gün real həyatda öz əksini tapıb. İlham Əliyevin andiçmə mərasimində verdiyi vədlər məzmunca taleyüklü olduğu kimi, ötən dövrdə keçilən yol da qərinələrə bərabərdir, Azərbaycan xalqı Ona bəslənən etimadın yüksək səviyyədə doğrulduğuna şahidlik edir və bundan qürur duyur. Prezident İlham Əliyevin vəd verdiyi kimi, Ulu Öndərin əsasını qoyduğu siyasətə sadiq qalması Azərbaycanın ən böyük uğuru və xalqımızın ən böyük xoşbəxtliyidir. Siyasi varisliyin təmin edilməsi ölkəmizi bəzi dövlətlərin timsalında müşahidə etdiyimiz pis nümunələrdən - geri dönmələrdən qoruyub və davamlı inkişafa istiqamətləndirib.

Hər bir dövlətin gücünü və siyasi müstəqilliyini şərtləndirən əsas amil qismində onun iqtisaddi potensialı çıxış edir. Hazırda Azərbaycan beynəlxalq arenada real siyasi müstəqilliyə malik olan dövlət kimi qəbul edilir və böyük hörmət bəslənilir. Bir sıra ölkələrdən fərqli olaraq respublikamızın siyasətinin istiqamətləri hansısa paytaxtlarda deyil, məhz Bakıda, Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirlir. Bunun təminatnı isə ölkənin iqtisadi müstəqilliyi verir. Hazırda Azərbaycan heç bir güc mərkəzindən, beynəlxalq maliyyə qurumundan asılı deyil, öz problemlərini iqtisadi gücünə əsaslanmaqla özü həll edir. Prezident İlham Əliyev məmnunluq hissi ilə bildirib ki, bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir.

Ulu Öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" fikri 2004-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas qayəsini təşkil edib. Ötən dövrdə dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi ilə geniş əhatə dairəsinə malik olan islahatlar reallaşdırılıb, ölkədə iqtisadi inkişaf üçün bütün şərtlər təmin edilib. Bu illər ərzində transmilli şirkətlərlə imzalanan müqavilələr üzrə ölkəmizə gələn gəlirlərin müəyyən bir hissəsi məqsədyönlü şəkildə sosial və iqtisadi önəm daşıyan infrastruktur layihələrinin icrasına, qeyri-neft sektorunun inkişafına yönəldilib. Respublikamızda sahibkarlıq mühiti davamlı olaraq optimallaşdırılıb, yerli istehsal və ixrac təşviq edilib, respublikamızın investisiya cəlbediciliyi artırılıb. Azərbaycan iqtisadiyyatının 4 dəfədən çox genişlənməsi kifayət qədər böyük uğurdur. Bəhs olunan dövrdə ölkənin strateji valyuta ehtiyatları isə təxminən 2 milyard dollardan 80 milyard dollara qədər artıb. Güclü iqtisadi potensial və geniş maliyyə imkanları Azərbaycanın manevr imkanlarını qat-qat artırır.

Qürurverici haldır ki, bu gün respublikamız dünya üzrə xarici borcu aşağı səviyyədə olan ölkələr sırasında yer alır. Müstəqilliyimizin ilk illərində respublikamız beynəlxalq maliyyə qurumlarından borc almaq məcburiyyətində idi. Sonradan vəziyyət dəyişdi və ölkəmiz artan imkanlarına əsaslanmaqla xarici borclarını azaltmaq siyasətinə keçdi. Hazırda Azərbaycan sərmayə cəlbediciliyini yüksək səviyyədə saxlamaqla yanaşı, həm də özü respublikanın hüdudlarından kənarda genişmiqyaslı investisiya fəaliyyəti həyata keçirir. "Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur.

Biz ehtiyatlarımızı Dövlət Neft Fondu və Mərkəzi Bankda topladıq. Beləliklə, ehtiyatlarımız xarici borcu 18 dəfədən çox üstələyir. Bütün bunlar birinci növbədə bizim təbii sərvətlərimizdən düzgün istifadə etdiyimizə görə baş verdi", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**Qarşıda duran istənilən vəzifəni yerinə yetirməyə qadir olan güclü ordu quruculuğu**

Azərbaycanın qarşısında duran istənilən vəzifəni yerinə yetirməyə qadir olan güclü və müasir ordu qurması da neft-qaz gəlirlərindən milli mənafe naminə səmərəli şəkildə istifadə edilməsinə yaxşı bir nümunədir. Bunu diqqətə çatdıran dövlətimizin başçısı bildirib: "Biz demək olar ki, 30 il ərzində işğal altında qalmış torpaqlarımızı azad edən güclü ordu qurduq. Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik"

İşğalçı Ermənistan ötən əsrin 90-cı illərinin əvvəllərində torpaqlarımızın 20 faizini o zaman müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda AXC-"Müsavat" cütlüyünün xəyanəti nəticəsində baş verən mənfi proseslərdən, hakimiyyət boşluğundan, hərc-mərclikdən, həmrəyliyin təmin olunmamasından istifadə etməklə və havadarlarının dəstəyindən bəhrələnməklə işğal etmişdi. Mənfur düşmən beynəlxalq birlik tərəfindən tanınan ərazilərimizi zor tətbiq etməklə işğal altına alanda və sonrakı mərhələdə ağır müharibə cinayətlərinə əl atdı. Belə ki, bu işğal nəticəsində  soydaşlarımız doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qaldılar. Qaçqın və məcburi köçkünlərin sayı bir milyonu ötmüşdü və bu, ölkəmiz üçün böyük humanitar fəlakət idi.

Təbii ki, Azərbaycan dövləti və xalqı ölkə ərazisinin bir hissəsinin işğal altına düşməsi faktı ilə heç vaxt barışmadı. Dövlət başçısı seçildiyi vaxtdan Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün təmin olunması məsələsini Azərbaycanın gündəliyinin mərkəzində saxladı. Dövlətimizin başçısı yerli və xarici auditoriyalar qarşısında çıxışlarında ölkəmizin keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini qətiyyətlə və yüksək diplomatik məharətlə dünya ictimaiyyətinin diqqətinə çatdırır, eyni zamanda, ölkəmizin milli gücünün artırılmasına hesablanan ardıcıl siyasət həyata keçirirdi. Beləliklə də, özünün iqtisadi müstəqilliyinə nail olan Azərbaycan, həmçinin istənilən xarici təhdidi dəf etməyə və düşmənin başını əzməyə qadir olan güclü ordu qurmağa nail oldu.

Azərbaycan düşməni məhz özünün güclü Ordusu ilə cəzalandırdı və ərazi bütövlüyünü, suverenliyini tam təmin etməyə nail oldu.  Qürur mənbəyimiz olan şanlı zəfərlərimiz tarixdə əbədi qalacaq. "Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər", - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Strateji tərəfdaşlığı möhkəmləndirən mühüm addım

## İlk Azərbaycan-ABŞ İqtisadi Dialoqunda əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilib

Bakı Enerji Həftəsi çərçivəsində iyunun 2-də Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və ABŞ Dövlət Departamentinin birgə təşkilatçılığı ilə ilk Azərbaycan-ABŞ İqtisadi Dialoqu keçirilib. Tədbir Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın müddəalarına uyğun olaraq təşkil edilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov və ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun həmsədrliyi ilə keçirilən tədbirdə hər iki ölkənin dövlət qurumları, beynəlxalq maliyyə institutları və özəl sektorun nümayəndələri iştirak ediblər.

Azərbaycan-ABŞ münasibətlərinin dinamik şəkildə inkişaf etdiyini vurğulayan iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, Strateji Tərəfdaşlıq Xartiyası iqtisadi əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynayır: Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu (TRIPP) və Orta Dəhliz vasitəsilə ticarət əlaqələrinin genişləndirilməsi, enerji təhlükəsizliyinin gücləndirilməsi, kritik minerallar üzrə təchizat zəncirlərinin inkişafı, eləcə də nəqliyyat, logistika və rəqəmsal infrastruktur sahələrində yeni investisiya imkanlarının araşdırılması üçün əhəmiyyətli perspektivlər mövcuddur. Birgə layihələrin müəyyənləşdirilməsi, işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi və qarşılıqlı faydalı təşəbbüslərin həyata keçirilməsi üzrə konstruktiv dialoq ikitərəfli əməkdaşlığa töhfə verəcək.

Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında biznes, ticarət və iqtisadi investisiyalar sahəsində ikitərəfli imkanların genişləndirilməsinə sadiq olduqlarını vurğulayan ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orr bildirib ki, dialoq çərçivəsində müzakirə olunacaq layihə və təşəbbüslərin nəticələri, eləcə də ikitərəfli iqtisadi münasibətlərin daha da gücləndirilməsi üçün mövcud imkanlar Azərbaycan və ABŞ arasında iqtisadi əməkdaşlığın inkişafına təkan verəcək.

**Yüksəksəviyyəli nümayəndə heyətinin səfəri**

Bakı Enerji Həftəsi çərçivəsində ABŞ-ın yüksəksəviyyəli nümayəndə heyətinin Azərbaycana səfəri iki ölkə arasında iqtisadi münasibətlərin çoxşaxəli inkişafı üçün yeni dövrün başlandığını bir daha təsdiqləyir. Son aylarda iki dövlət arasında iqtisadi və siyasi bloklarda ardıcıl xarakter alan sıx təmasların artması və qətiyyətli iradənin ortaya qoyulması da Bakı-Vaşinqton münasibətlərinin tamamilə yeni dövrə daxil olmasını təmin etməkdədir. Bu tədbir isə Azərbaycan və ABŞ arasında iqtisadi tərəfdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi, biznes mühitinin inkişafı üzrə əlverişli imkanların yaradılması və özəl sektor nümayəndələri arasında əlaqələrin gücləndirilməsi üçün mühüm fürsət sayıla bilər.

Dialoq çərçivəsində enerji, innovasiya, rəqəmsal transformasiya, logistika və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsinə yönəlmiş bir sıra sənədlərin imzalanması isə Azərbaycan və ABŞ arasında iqtisadi əlaqələrin dərinləşməsinə, yeni investisiya layihələrinin reallaşdırılmasına və uzunmüddətli strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcək. Eyni zamanda, Azərbaycan iqtisadiyyatına texnologiya və innovasiyanın transferinin sürətlənməsinə gətirib çıxaracaq.

**Əlverişli biznes mühiti ABŞ investorları üçün maraq doğurur**

Birinci İqtisadi Dialoq çərçivəsində regional bağlantılar, ticarət və tranzit, enerji təhlükəsizliyi, investisiyalar, süni intellekt və rəqəmsal infrastruktur mövzularına həsr olunmuş panel sessiyalarda ölkəmizin iqtisadi imkanları yüksək dəyərləndirilib. Azərbaycanın investorlar üçün təmin etdiyi əlverişli biznes mühiti, eləcə də ölkənin Avropa və Mərkəzi Asiya ilə artan əlaqələrinin ABŞ şirkətləri üçün maraq doğurduğu ifadə olunub.

İqtisadi investisiyalar üzrə paneldə hər iki xalqın qarşılıqlı rifahına xidmət edən iqtisadi layihələrin, o cümlədən nəqliyyat və logistika, enerji və




rəqəmsal texnologiyalara ikitərəfli investisiyaların təşviqi məsələləri müzakirə olunub. Həmçinin investorlar üçün təşviq mexanizmləri, üstünlüklər



və əlverişli hüquqi rejim təklif edən Ələt Azad İqtisadi Zonası daxil olmaqla müxtəlif istiqamətlərdə ABŞ investisiyalarının təşviqi imkanları diqqət mərkəzində olub.

Süni intellekt və rəqəmsal infrastruktur üzrə müzakirələrdə ABŞ-ın yüksək texnoloji həlləri barədə məlumat verilib. Data mərkəzləri, süni intellekt texnologiyalarının tətbiqi istiqamətində əməkdaşlıq, tənzimləyici çərçivələrin inkişafı və bu sahədə gələcək tərəfdaşlıq nəzərdən keçirilib. İclas çərçivəsində tərəflər iqtisadi əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı investisiyaların təşviqi və innovativ layihələrin dəstəklənməsinin əhəmiyyətini vurğulayıblar.

Tədbir çərçivəsində, həmçinin biznes dairələri ilə görüş keçirilib, özəl sektor arasında əməkdaşlığın inkişafı və yeni tərəfdaşlıqların qurulmasının əhəmiyyəti qeyd olunub.

**Enerji diplomatiyasının yeni səhifəsi**

Müzakirələrdə enerji əməkdaşlığı da diqqət mərkəzində olub. Şərq-Qərb enerji dəhlizlərinin formalaşmasına hər zaman davamlı dəstək verən Amerika BTC, TANAP, TAP layihələrin sülh və rifah, əsil enerji həmrəyliyi dəhlizləri olmasını bəyan edərək Azərbaycanın şaxələndirilmiş enerji siyasətini alqışlayıb. İki ölkənin enerji şirkətləri arasında əldə edilmiş yeni anlaşmalar, o cümlədən Bakı Enerji Həftəsi çərçivəsində imzalanmış sazişlərin əhəmiyyətinə toxunulub.

Qeyd edək ki, SOCAR və ABŞ-ın SLB şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzərin Azərbaycan sektorundakı "Bahar" və "Qum-Dəniz" yataqlarının yenidən işlənməsinə start verilib. Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyən edilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin hazırlanmasını və bu yataqlarda erkən hasilat sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur. 25 il müddətinə nəzərdə tutulan müqavilənin investisiya portfeli 1 milyard dollar həcmində qiymətləndirilir. Müqavilə blokunda qaz ehtiyatları 25 milyard kubmetr təşkil edən yatağın işlənməsi SOCAR-ın neft hasilatının artmasına və uzunmüddətli strategiyasına mühüm töhfə verəcək.

ABŞ-ın nəhəng enerji korporasiyası - "ExxonMobil" hazırda Azərbaycanda quruda yerləşən neft və qaz ehtiyatlarının potensial inkişafını qiymətləndirir. SOCAR və "ExxonMobil" korporasiyası arasında "Əməkdaşlıq haqqında Memorandum"un imzalanmasından sonra ABŞ-ın məşhur enerji korporasiyası Azərbaycanda yeni fəaliyyət planlarına start verib və Xəzərdə müasir enerji həmrəyliyi halqası daha böyüməkdədir. "Azəri-Çıraq-Günəşli" layihəsində tərəfdaş olan "Exxon" ötən dövrdə neft emalı və nəqli, enerji sektorunda müasir qazma texnologiyalarının tətbiqi, habelə resursların diversifikasiyasında mövcud olan təcrübəsini yeni perspektivli enerji bloklarında tətbiq etməkdədir. Bu isə Xəzərdə yeni karbohidrogen tədarüklərinin başlanması üçün yaxşı fürsət deməkdir.

Eləcə də Azərbaycanın "yaşıl enerji keçidi" layihələrində, xüsusilə külək və Günəş enerjisi sahəsində Amerika şirkətlərinin iştirakının da genişləndirilməsi təşviq edilməkdədir. Bu baxımdan SOCAR-la əməkdaşlığın yeni mərhələsi ABŞ-ın ənənəvi enerji ilə bərabər, bərpaolunan enerji sahələrində əməkdaşlığı dərinləşdirmək niyyətlərindən xəbər verir.

**TRIPP layihəsi Şərq-Qərb dəhlizinin yeni modelidir**

İlk sessiyada Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu (TRIPP), Orta Dəhliz, regional logistika imkanlarının genişləndirilməsi də müzakirə olunub. Orta Dəhlizin genişləndirilməsi, Zəngəzur dəhlizinin inkişafı istiqamətində görülən və planlaşdırılan işlər, bu proseslərdə ABŞ şirkətlərinin iştirak perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb, bu qlobal nəqliyyat arteriyasının Orta Dəhliz üzrə mövcud enerji marşrutlarının regional əməkdaşlıq baxımından önəminə toxunulub. TRIPP layihəsinin Azərbaycanın iki hissəsini birləşdirməklə bərabər, Ermənistan və digər qonşuların ərazisi vasitəsilə Asiya ilə Avropanı bağlayacaq etibarlı, təhlükəsiz və böyükmiqyaslı daşımalar dəhlizinə çevriləcəyinə əminlik ifadə olunub.

Qeyd edək ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Amerika Birləşmiş Ştatları (ABŞ) Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə də Azərbaycan ilə ABŞ arasında rəqəmsallaşma və nəqliyyat sahələrində əməkdaşlıq perspektivləri nəzərdən keçirilib. Tərəflər süni intellekt və kibertəhlükəsizlik istiqamətlərində normativ-hüquqi bazanın genişləndirilməsi, eləcə də ölkəmizdə data mərkəzinin tikintisi məqsədilə ABŞ-ın dövlət qurumları və şirkətləri ilə tərəfdaşlıq məsələlərini müzakirə ediblər.

Tədbirin sonunda bu il Bakının ABŞ-ın II Dünya Süni İntellekt Həftəsinə ev sahibliyi edəcəyi elan olunub. İqtisadiyyat naziri Mikayıl Cabbarov və ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Keyleb Orrun iştirakı ilə Azərbaycanda rəqəmsal infrastrukturun yaradılması, texnologiya transferi və səmərəli sənaye həllərinin tətbiqi sahələrində bir sıra sənədlər və Dialoqun Protokolu imzalanıb.

*E. CƏFƏRLİ*

# Daha güclü kibertəhlükəsizlik sistemi



## Milli Kibertəhlükəsizlik Agentliyi yaradılıb

Prezident İlham Əliyevin imzaladığı müvafiq Fərmana əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin əsasında Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Milli Kibertəhlükəsizlik Agentliyi" publik hüquqi şəxs yaradılıb. Agentliyin Nizamnaməsi təsdiq edilib, nizamnamə fondunun məbləği 442 min 498 manat həddində müəyyən edilib. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşacaq.

Agentlik qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə olunmuş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malik olacaq. Agentliyin sərəncamında qalan vəsaitdən nazirlik əməkdaşlarına əlavə mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulacaq.

**Texnoloji inkişaf və rəqəmsallaşmanın çağırışları**

Ölkəmizdə texnoloji inkişaf, rəqəmsallaşma, süni intellektin tətbiq edilməsi gündəlik həyatımızda yeni riskləri də meydana çıxarır. Dövlət qurumları,özəl sektor və cəmiyyətin bütün digər seqmentlərində rəqəmsallaşma dayanmadan irəliləyir. Ələlxüsus da sosial platformalara elektron ticarətin ənənəvi ticarəti sıradan çıxararaq ön plana keçməsi və maliyyə sövdələşmələrinin bu platforma üzərindən aparılması kibertəhlükələri də artırır. Azərbaycanın informasiya məkanına, o cümlədən onun tərkib hissələri olan dövlət, özəl və qeyri-hökumət qurumlarının, fiziki şəxslərin sahib olduğu informasiya ehtiyatlarına və infrastrukturlarına, maddi və qeyri-maddi obyektlərə qarşı texnoloji cəhətdən çoxşaxəli hücumların genişləndiyini müşahidə edirik.

Bütün bunlar hökuməti milli təhlükəsizliyə olan təhdidləri müəyyən etmək, bu təhdidlərin istifadə edə biləcəyi zəiflikləri, boşluqların və təhdid nəticəsində yarana bilən fəsadları aradan qaldırmaq üçün məsuliyyətini artırır və fəaliyyətini daha da gücləndirməyi labüd edir. Kibercinayətkarlığın törədilmə üsul və vasitələrinin sürətli diversifikasiyası, o cümlədən kriptovalyutaların geniş vüsət alması və müxtəlif cinayətkar məqsədlərlə istifadə olunması, kiberhücum vektorlarının ildən-ilə daha da çoxalması, o cümlədən sosial mediya kontekstində sürətlə artan kibertəhdidlər mübarizədə daha mükəmməl texnoloji həllərin tətbiqini zəruri edir. Ona görə də, kibertəhlükəsizlik riskləri reyestrinin formalaşdırılması, təhdidlərin qarşısını ala biləcək müasir texnologiyaların tətbiqi, fərdi məlumatların mühafizəsinin gücləndirilməsi, İKT- xidmət subyektlərində fəaliyyətin və "ağıllı" sistemlərin təhlükəsizliyinin təkmilləşdirilməsi, kiberkriminalistika sahəsində fəaliyyətin gücləndirilməsi olduqca vacibdir. Çevik və koordinasiya olunmuş fəaliyyət komandasına əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirləri həyata keçirən qurumlarla yanaşı, elmi-texniki və təhsil, informasiya-təhlil, kommunikasiya, iqtisadi və digər sahələr üzrə əlaqələndirilmiş birgə fəaliyyətin gücləndirilməsi sayəsində daha güclü və geniş təhlükəsizlik şəbəkəsi formlaşdırmaq mümkündür.

**Hər ildə 1 trilyon dollardan çox kiberzərər...**

Ümumdünya İqtisadi Forumunun Qlobal Risklər Hesabatına əsasən, kibertəhlükələr bu gün dünyanın üzləşdiyi risklər sırasında ilk yerlərdən birinə çevrilib. Bu isə ölkələrin və insanların məluamtlar bazasının ələ keçirilməsi ilə yanaşı, hədsiz dərəcədə böyük maliyyə itkilərinin yaranmasına səbəb olmaqdadır.

Ümumdünya Kibertəhlükəsizlik Təşkilatının (GISEC) məlumatına əsasən, kiberhücumlar qlobal miqyasda son 4 ildə daha da artıb və kibercinayətkarlıq qlobal iqtisadiyyata hər il 1 trilyon dollardan çox ziyan vurur. Təkcə, 2024-cü ilin birinci yarısında beynəlxalq miqyasda kiberhücumlar 30 faiz artıb və zərərlərin maddi dəyəri 100 milyonlarla dollara bərabərdir. Təhdidlərin artmasının səbəbləri arasında yeni texnologiyaların tətbiqi, zəif müdafiə üsulları və insan amili xüsusi yer alır. Hakerlər daha çox fərdi məlumatları, maliyyə məlumatlarını və dövlət sirlərini hədəfə alır.

Məhz bu səbəblərdən kibertəhlükəsizliyin təmin olunması istər milli, istərsə də beynəlxalq səviyyədə ən başlıca məsələyə çevrilib və mütəşəkkil vahid əlaqələndirilmiş fəaliyyət tələb edir. Bu baxımdan Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması ölkəmizdə dövlət siyasətinin daha güclü və əlaqələndirilmiş formada həyata keçirilməsində mühüm addım kimi dəyərləndirilə bilər.

**Kibertəhlükəsizlik Agentliyi hansı fəaliyyətlə məşğul olacaq?**

Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması ölkəmizdə kibertəhlükəsizlik və fərdi məlumatların mühafizəsi sahəsində mühüm institusional dəyişikliklərə səbəb olacaq, e-təhlükəsizliyin daha da gücləndirilməsinin dayanıqlılığını təmin edəcək. İndiyə qədər kibertəhlükəsizlik sektorunda fəaliyyət göstərən Elektron Təhlükəsizlik Xidmətinin səlahiyyətləri, resursları və kadr potensialı kifayət qədər məhdud olduğundan kibertəhlükəsizlik sahəsində müəyyən boşluqlar yaranırdı. Yeni Agentliyin isə statusu yüksəkdir, səalahiyyətləri və idarəetmə modeli kifayət qədər genişdir. İdarəetmə strukturuna əsasən, dövlət sektorunun ən kritik hissəsi əvvəlki kimi müvafiq təhlükəsizlik qurumlarının nəzarətində qalır. Dövlət qurumlarının informasiya sistemləri, kritik informasiya infrastrukturları, strateji sektorların kritik sistemləri, xüsusi mühafizə olunan obyektlər, kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin sistemləri, eləcə də dövlət sirri ilə işləyən informasiya sistemləri üzrə səlahiyyətlər əvvəlki qaydada saxlanılır. Belə ki, dövlət kibertəhlükəsizlik idarəçiliyində yeni balans formalaşdırır. Belə ki, strateji və milli təhlükəsizlik komponentləri mövcud təhlükəsizlik qurumlarının nəzarətində qalır, mülki sektorun kibertəhlükəsizlik tənzimlənməsi və fərdi məlumatların mühafizəsi isə yeni Agentliyin əsas fəaliyyət istiqamətlərinə çevrilir.

Agentlik daha çox kritik informasiya infrastrukturuna aid olmayan özəl sektorun kibertəhlükəsizlik tənzimləyicisi rolunda da çıxış edəcək ki, bu da milli informasiya təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Həmçinin, fərdi məlumatların mühafizəsi sahəsində Agentliyə xüsusi səlahiyyətlər verilib ki, bu da fərdi məlumat bazalarının reyestrinin aparılması, auditlərin təşkili, şikayətlərin araşdırılması və nəzarət funksiyalarının həyata keçirilməsinə imkan yaradacaq.

Agentlik telekommunikasiya operatorları, internet provayderləri, banklar, maliyyə qurumları, elektron ticarət platformaları, hostinq və bulud xidmətləri göstərən şirkətlər, eləcə də digər informasiya infrastruktura subyektləri ilə bağlı koordinasiya, monitorinq, metodoloji dəstək və tənzimləmə funksiyalarını həyata keçirəcək.

Bir sözlə, Agentliyin fəaliyyəti sayəsində Azərbaycanda kibertəhlükəsizlik və məlumatların qorunması sahəsində mühüm institusional arxitektura və fərdi məlumatların mühafizəsi istiqamətində daha dayanıqlı və sistemli mühiti formalaşacaq.

*E.CƏFƏRLİ*

# Yaxın tariximizin ibrət dərsi

Müstəqillik gözəl nemətdir, hər bir xalqın böyük uğurudur. Ancaq qısa müstəqillik tariximizdə heç də hər zaman insanda xoş əhval-ruhiyyə yaradan əlamətdar hadisələrlə qarşılaşmamışıq. Ciddi narahatlıq doğuran anlar da yaşamışıq və biz onları heç vaxt unutmamalıyıq. Unutmamalıyıq ki, müstəqilliyimizin qədrini bilək və onu daha həssaslıqla qoruyaq.

**Gəncə qiyamından 33 il ötür**

Belə hadisələrdən biri də tarixin bu günündə yaşanıb. Söhbət 1993-cü il iyunun 4-də baş verən Gəncə qiyamından gedir. Artıq həmin dəhşətli olayların baş verməsindən bizi 33 illik zaman məsafəsi ayırır. İllər ötdükcə həmin hadisələr nəinki unudulur, əksinə biz necə böyük bir faciə ilə üzləşdiyimizin miqyasını daha dərindən dərk edirik.

## AXC-"Müsavat" iqtidarının yarıtmaz fəaliyyəti və ölkəni bürüyən xaos

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində tale qəlbində hər zaman azadlıq, arzuları daşıyan Azərbaycan xalqına XX yüzillikdə ikinci dəfə müstəqillik qazanmaq şansı verdi. Belə ki, Ali Sovet 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul etdi. Lakin bəhs olunan tarixdə müstəqilliyimiz de-yure bəyan edilsə də, vəziyyət kritik dərəcədə ağır idi. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələr yalnız öz kreslolarını qorumaq barədə düşünürdülər. Onlar üçün xalqın mənafeyi, milli maraqlar arxa planda idi, bəziləri hətta stereotiplərin əsirliyində qalmaqla müstəqilliyi şüurlu şəkildə qəbul etmək istəmirdilər.

Müxalifət düşərgəsinə də milli birlik ideyası hakim deyildi. Qüvvələr parçalanmışdı və özlərini "lider" adlandıran bəzi şəxslər ətraflarında dəstələr formalaşdırmışdılar. Bu "liderlər" və dəstələr arasında antaqonist ziddiyyətlər hökm sürürdü. Hər kəs özünü iqtidarda görmək istəyirdi və bunun üçün istənilən qanunsuzluğa əl atmağa hazır idi. Belə xaotik reallıqlar fonunda AXC-"Müsavat" cütlüyü 1992-ci ilin yazında qeyri-legitim yolla hakimiyyətə gəlməyə nail oldu. Bu cütlük iqtidara milli-azadlıq ideyaları ilə gəlsə də, bir illik fəaliyyəti dönəmində xalqdan uzaq olduğunu və səriştəsizliyini bütün cəhətləri ilə ortaya qoydu. Həmin bir il ərzində yaşanan hadisələri təhlil etdikdə istər-istəməz respublikamızın XX yüzillikdə ikinci dəfə qazandığı müstəqilliyinin yenidən itirilməsi təhlükəsindən danışmaq məcburiyyətində qalırıq. AXC-"Müsavat" cütlüyü Azərbaycanı böyük fəlakətin - vətəndaş qarşıdurmasının astanasına gətirib çıxarmışdı. Hadisələr elə cərəyan edirdi ki, kövrək müstəqilliyimizin əldən getməsi tam real idi. İqtisadiyyat tamam dağılmışdı. Büdcə boş idi- hətta təqaüdləri verməyə belə vəsait tapılmırdı. 1993-cü ilin yayına doğru vəziyyət daha kritik hal almağa başladı. Cəbhədə durum xüsusilə ağırlaşmışdı. Ölkədəki hakimiyyət boşluğundan, xaos vəziyyətindən sui-istifadə edən düşmən qüvvələri Kəlbəcəri və Laçını işğal altına almaqla Ermənistanla Qarabağ arasında coğrafi bağlantını təmin etməyə nail oldu.

Belə vəziyyətdə silahlı qüvvələrimiz səfərbər olmaq, toparlanmaq əvəzinə, "liderlərin" əlində alətə çevrilmişdi. Orduda vahid komandanlıq yox idi. Hücüma keçən qüvvələrə qəfildən əlverişli mövqedən geri çəkilmək əmri gəlirdi. Gəncədə yerləşən və korpus komandiri Surət Hüseynovun rəhbərlik etdiyi 709 saylı briqada, necə deyərlər, ordu içində ordu sayılırdı. Müdafiə Nazirliyinin həmin hərbi hissənin ləğv edilməsi ilə bağlı qərar verməsi isə sanki odun üstünə yağ tökdü. İntriqalar, çəkişmələr daha da qızışdı. Müdafiə Nazirliyinin qərarı ilə razılaşmayan Surət Hüseynov qiyama başladığını bəyan etdi. Milli Qvardiyanı 709 saylı briqadanı zərərsizləşdirmək üçün Gəncəyə göndərən AXC-"Müsavat" hakimiyyəti faktiki olaraq ölkədə vətəndaş müharibəsinə rəvac verdi. Hətta həmin vaxt AXC-"Müsavat" qruplaşması öz hakimiyyətini qorumaq üçün Gəncənin bombalanması ilə bağlı qərar belə vermişdi. Hakimiyyətin bu kimi addımlarının ardından isə tabeçilik nümayiş etdirməyən hərbi hissənin zirehli maşınları və silahlı birləşmələri Bakıya doğru yol aldı. Qısa müddətdə bir neçə rayonda qanuni hakimiyyət devrildi. Baş verən hadisələr zamanı ilk qardaş qanı axıdıldı...



**Milli Qvardiyanı 709 saylı briqadanı zərərsizləşdirmək üçün Gəncəyə göndərən AXC-"Müsavat" hakimiyyəti faktiki olaraq ölkədə vətəndaş müharibəsinə rəvac verdi. Hətta həmin vaxt AXC-"Müsavat" qruplaşması öz hakimiyyətini qorumaq üçün Gəncənin bombalanması ilə bağlı qərar belə vermişdi. Hakimiyyətin bu kimi addımlarının ardından isə tabeçilik nümayiş etdirməyən hərbi hissəsinin zirehli maşınları və silahlı birləşmələri Bakıya doğru yol aldı**

## Heydər Əliyevin xilaskarlıq missiyası

Tale elə gətirdi ki, respublikaya birinci rəhbərliyi dönəmində gələcək müstəqillik üçün ciddi siyasi, iqtisadi və ideoloji əsaslar yaratmış böyük siyasətçi Heydər Əliyev respublikamızın ötən əsrin 90-cı illərinin əvvəllərində ikinci dəfə əldə etdiyi müstəqilliyini qorumaq missiyasını da elə Özü yerinə yetirdi. AXC-"Müsavat" iqtidarının diletant siyasətini qəbul etməyən, yuxarıda təsvir etdiyimiz xaosdan, anarxiyadan bezən xalq üzünü Ona tutaraq Naxçıvandan Bakıya gəlməsini, ölkənin siyasi rəhbərliyinə qayıtmasını təkid etdi. Bunu həm də AXC-"Müsavat" iqtidarı istəyirdi. Heydər Əliyev çətin seçim qarşısında idi. Başqası olsaydı, həmin xaotik vəziyyətdə həyatını və karyerasını təhlükəyə atmaqdan çəkinərək suların durulmasını gözləyərdi. Ancaq söhbət Heydər Əliyevdən gedirdi. Çətinliklərlə üzləşən xalqı Ona üz tutmuşdu, güvənmişdi. O, xalqın güvənini, inamını qırılmağı Özünə rəva görə bilməzdi. Bilmədi də. Bakıya gəlib respublikanın idarəçilik sükanının arxasına keçməyə razılıq verdi. Heydər Əliyev iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Lakin Heydər Əliyev hakimiyyət hərisi deyildi. AXC-"Müsavat" iqtidarı tərəfindən Heydər Əliyevə birbaşa hakimiyyəti ələ almaq təklif olunsa da, O, təmkinlə davrandı, əvvəlcə Cəncəyə gedib burada görüşlər keçirdi, vəziyyəti yerində dəyərləndirdi. Bakıya qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.

Müstəqilliyimizin anarxiya, xaos dönəminin ən ağrılı və narahatlıq doğuran məqamlarından biri də həmin dövrdə Prezident vəzifəsini daşıyan AXC sədri Əbülfəz Əliyevin (Elçibəy) qeyri-adekvat davranışları idi. Atdığı hər addımda, aldığı hər qərarda aydın şəkildə görünürdü ki, o, ölkəni idarə etməyə qadir deyil. Prezident Əbülfəz Əliyev iyunun 17-dən 18-nə keçən gecədə hamını, necə deyərlər, şoka salan hərəkətə yol verib- qəfildən yoxa çıxıb. Sonradan onun yeri bəlli olub- dövlət başçısı müvafiq qurumların təmsilçilərini məlumatlandırmadan Naxçıvan Muxtar Respublikasının Ordubad rayonundakı Kələki kəndinə üz tutub və orada yaşamağa qərar verib.

Ölkə çətin vəziyyətdə olduğu bir vaxtda dövlət başçısının bu cür qeyri-ciddi davranmasına hansı qiyməti vermək olar? Sonradan Ali Sovetin Sədri Heydər Əliyev dəfələrlə Prezidentin Bakıya gəlib vəzifəsini yerinə yetirməsinə çağırış etsə də, Əbülfəz Elçibəy buna məhəl qoymayıb. O, özüsayağı şəkildə bəyan edib ki, dövləti Kələkidən idarə edəcək. Yeri gəlmişkən, AXC-"Müsavat" iqtidarında təmsil olunan ayrı-ayrı nazirlər, icra başçıları da oxşar qeyri-ciddi davranışlar sərgiləyiblər. Onlar məsuliyyətsizcəsinə tutduqları vəzifələri özlərinin işlətdiyi ifadə ilə desək, dondurublar...

Belə xaotik vəziyyətdə Heydər Əliyev Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Və nəhayət, 1993-cü il 3 oktyabr tarixində ölkədə keçirilən prezident seçkilərində inamlı qələbə qazandı.

Seçkilərin qalibi olan Heydər Əliyev 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək Prezident kimi fəaliyyətə başladı. O, andiçmə mərasimindəki nitqində deyib: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcəm və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Heydər Əliyev bütün varlığı ilə andına sadiq qaldı. O,vaxt itirmədən Azərbaycanın sabahı, müstəqilliyimizin əbədiyaşarlığı üçün müstəsna önəm daşıyan böyük işlərin təməlini qoydu. İlk növbədə ölkədə anarxiyanın ram edilməsinə, vahid komandanlığa tabe olan ordunun formalaşdırılmasına başlanıldı. Dövlətçiliyin möhkəmlənməsini hədəfləyən zəruri qərarlar imzalandı. İslahatların anonsu verildi və ölkə inkişafa istiqamətləndi.

**Heydər Əliyev iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Lakin Heydər Əliyev hakimiyyət hərisi deyildi. AXC-"Müsavat" iqtidarı tərəfindən Heydər Əliyevə birbaşa hakimiyyəti ələ almaq təklif olunsa da, O, təmkinlə davrandı, əvvəlcə Cəncəyə gedib burada görüşlər keçirdi, vəziyyəti yerində dəyərləndirdi. Bakıya qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi**

*Mübariz FEYİZLİ*

# İslahatlar prosesində siyasi partiyaların fəal iştirakı təqdirəlayiqdir

## Azad Vətən Partiyasının sədri Akif Nağı Prezident Administrasiyasında qəbul edilib



Azad Vətən Partiyasının sədri Akif Nağı Prezident Administrasiyasında qəbul edilmişdir.

Bu barədə məlumat redaksiyamıza Partiyanın Mətbuat xidməti tərəfindən verilmişdir.

3 iyun tarixində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə keçirilmiş görüş zamanı region və Azərbaycanda cərəyan edən siyasi proseslər, habelə partiyaların ölkəmizdə artan ictimai nüfuzu barəsində geniş fikir mübadiləsi aparılmışdır.

Görüş zamanı Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə reallaşan çoxşaxəli islahatların cəmiyyət tərəfindən aktiv şəkildə dəstəkləndiyini vurğulayan Prezident Administrasiyasının rəsmisi bildirmişdir ki, sözügedən proseslərdə siyasi partiyaların fəal iştirakı təqdirəlayiq hadisədir. Eyni zamanda qlobal tədbirlərin keçirilməsinin əhəmiyyəti, "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində görülən işlərin miqyası, ölkə ziyalılarının Azərbaycan reallıqlarının təbliğində rolu və digər məsələlər ətrafında müzakirələr aparılmışdır. İnformasiya məkanında vaxtaşırı şəkildə təkrarlanan qərəzli təxribatlar ilə mübarizənin aparılması məsələsi də xüsusi olaraq müzakirə olunmuşdur.

Partiya sədri vurğulamışdır ki, ölkədə siyasi partiyalara yaradılan şərait bilavasitə demokratik və sağlam siyasi münasibətlərin təzahürü kimi dəyərləndirilməlidir. Belə ki, siyasi partiyaların ictimai müzakirələrdə açıq şəkildə iştirakı ölkənin demokratik ənənələrinin inkişafına və partiyaların ictimai nüfuzunun artırılmasına xidmət edir.

Akif Nağı Azad Vətən Partiyası tərəfindən həyata keçirilən layihələr haqqında geniş məlumat verərək xüsusi olaraq vurğulamışdır ki, bundan sonra da rəhbərlik etdiyi Partiya sağlam siyasi dialoq ənənələrə sadiq qalacaqdır.

# "Heydər Əliyev və Azərbaycan memarlığının inkişaf strategiyası"













Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə Göygöl rayonu ərazisində yerləşən Yaylaq düşərgəsində keçirilən "Heydər Əliyev məktəbi" layihəsinin ikinci günündə gənc fəallarla "Heydər Əliyev və Azərbaycan memarlığının inkişaf strategiyası" mövzusunda görüş keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə iştirak edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə və AzMİU-nun Memarlıq fakültəsinin dekanı Zahidə Məmmədovanın çıxışlarında bildirilib ki, Ulu Öndər Heydər Əliyev ölkənin inkişafını yalnız iqtisadi göstəricilərlə deyil, həm də şəhərlərin estetik görünüşü, yaşayış mühiti və mədəni irsin qorunması ilə əlaqələndirirdi. Ümumilli Liderimizin müəyyən etdiyi inkişaf xətti nəticəsində hələ 1969-cu ildən başlayaraq Azərbaycan şəhərlərində sistemli şəhərsalma prinsiplərinin tətbiqinə başlanılıb, müasir infrastrukturun yaradılması ilə yanaşı, milli memarlıq xüsusiyyətlərinin qorunması prioritet istiqamət kimi müəyyənləşdirilib.

Vurğulanıb ki, hələ Sovet İttifaqı zamanında ölkəmizə rəhbərlik etdiyi dövrlərdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan memarlığının inkişafına dair baxışları ilk növbədə regionların tarazlı inkişafı prinsipinə əsaslanırdı. Ulu Öndər hesab edirdi ki, müasir şəhərsalma yalnız paytaxtın deyil, bütün bölgələrin sosial-iqtisadi inkişafına xidmət etməlidir. Məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə rayon mərkəzlərinin yenidən qurulması, yeni sosial obyektlərin yaradılması və yaşayış məkanlarının abadlaşdırılması istiqamətində mühüm layihələr həyata keçirilib. Bu siyasət nəticəsində memarlıq ölkənin inkişaf proqramlarının ayrılmaz hissəsinə çevrilib. O da qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin ölkəmizdə memarlığın və şəhərsalmanın inkişafına göstərdiyi ən böyük diqqət, bu istiqamətdə atılan ən mühüm addım Azərbaycan memarlıq məktəbinin institusionallaşdırılması - Azərbaycan Memarlıq və İnşaat Universitetinin fəaliyyətə başlamasıdır. Məhz həmin dövrdən başlayaraq memarlıq və şəhərsalma üzrə elmi araşdırmaların genişləndirilməsi, layihələndirmə institutlarının fəaliyyətinin gücləndirilməsi və peşəkar kadr hazırlığının təkmilləşdirilməsi üçün əlverişli şərait formalaşıb.

Diqqətə çatdırılıb ki, bu gün Azərbaycanın beynəlxalq şəhərsalma gündəmində fəal iştirak etməsi də əsası Ulu Öndər tərəfindən qoyulan uzaqgörən siyasətin davamlılığının nəticəsidir. Bakıda keçirilən WUF13 kimi mötəbər forum ölkəmizin qlobal urbanizasiya proseslərinə verdiyi töhfənin göstəricisidir. Forum çərçivəsində dayanıqlı şəhərlər, yaşıl inkişaf, innovativ şəhər idarəçiliyi və insan yönümlü məkanların formalaşdırılması kimi məsələlər müzakirə olunub. Azərbaycanın bu mötəbər tədbirə ev sahibliyi etməsi ölkəmizin beynəlxalq etimad qazandığını və şəhərsalma sahəsində nümunəvi təcrübəyə malik olduğunu nümayiş etdirib. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı memarlıq strategiyası bu gün də aktualdır. Müasir şəhərsalma çağırışlarına uyğun yenilənən Azərbaycan şəhərləri milli dəyərlərə söykənən inkişaf modelini uğurla davam etdirir. Bu model həm şəhər mühitinin keyfiyyətini yüksəldir, həm də ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir.

Görüşdə gənc fəallardan Nazpəri Rzayeva, Pəri Muradlı, Qədir Məmmədov, Şölə İsmayılova və başqaları mövzu ilə əlaqədar öz fikirlərini bölüşüblər.

Sonra görüş iştirakçılarının sualları cavablandırılıb.

Layihədə iştirak edən gənclər daha sonra Gəncə şəhərinə ekskursiya edərək şəhərin tarixi memarlıq inciləri ilə tanış olublar. Nizami Gəncəvi məqbərəsi, Gəncə qala qapıları, Heydər Əliyev parkı, Şah Abbas məscidi, Gəncə şəhər Flarmoniyası, Cavad xan məqbərəsi, eləcə də modern Gəncədə gedən quruculuq işləri gənc partiya fəallarında böyük təəssürat oyadıb.

# Keçmiş məcburi köçkünlərin mülkiyyət hüququ bərpa olunur



## Parlamentin komitələrində bu məsələ ilə bağlı qanun layihələri müzakirə edilib

İyunun 3-də Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. İclasın gündəliyinə Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda daxil edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, müzakirəyə təqdim olunan qanun layihəsi keçmiş məcburi köçkünlərin doğma yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsaslarının təkmilləşdirilməsini, işğaldan azad edilmiş ərazilərə köçürülən şəxslərin statusunun və onlara göstərilən sosial dəstək mexanizmlərinin tənzimlənməsini nəzərdə tutur. Komitə sədri qeyd edib ki, məcburi köçkünlər uzun illər Azərbaycan dövlətinin xüsusi qayğısı ilə əhatə olunub. Onların sosial və digər problemlərinin həlli Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın daim diqqət mərkəzində olub. Məcburi köçkünlərin sosial problemlərinin həlli ilə əlaqədar Azərbaycan Prezidenti tərəfindən 2004-2019-cu illər ərzində 75 Fərman və Sərəncam imzalanıb, Milli Məclis tərəfindən 11 Qanun qəbul edilib. Torpaqlarımızın işğal altında olduğu dövrdə məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 121 yeni qəsəbə və yaşayış kompleksi tikilərək onların istifadəsinə verilib. 62 mindən çox məcbur köçkün ailəsinin, yəni 300 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Dövlət tərəfindən məcburi köçkün ailələrinə uzun illər ərzində təhsil və vergi güzəştləri, vahid aylıq müavinət, ünvanlı sosial yardım, məşğulluq proqramları, tibbi-sosial reabilitasiya və digər sosial müdafiə mexanizmləri çərçivəsində davamlı dəstək göstərilib.

Bildirilib ki, məcburi köçkünlərə göstərilən diqqət və qayğı torpaqlarımız işğaldan azad edildikdən sonra da davam etdirilib. Vətən müharibəsində Qələbədən sonra işğaldan azad ərazilərdə geniş bərpa və quruculuq işləri həyata keçirilir. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb, yeni mərhələdə qarşıya qoyulan hədəflərin reallaşdırılması məqsədilə dövlətimizin başçısının 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın Tədbirlər Planı təsdiqlənib. Qeyd olunub ki, Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına başlanmasından ötən dörd il ərzində bu məqsədlə dövlət büdcəsindən 28 milyard manata yaxın vəsait ayrılıb, Qarabağda və Şərqi Zəngəzurda 40-dan çox yaşayış məntəqəsində keçmiş məcburi köçkünlərin daimi yaşayışı təmin olunub. İşğaldan azad edilmiş ərazilərdə hazırda 85 minə yaxın soydaşımız yaşayır, təhsil alır və işlə təmin edilib.

Musa Quliyev bildirib ki, birinci Dövlət Proqramının icrası ilə bağlı möhkəm hüquqi baza yaradılıb, qanunvericilikdə müvafiq dəyişiklik edilərək Qarabağda və Şərqi Zəngəzurda işləyən və məskunlaşan şəxslər üçün yeni müavinət növü təsis edilib, məzuniyyət, vergi, sosial sığorta güzəştləri və imtiyazları müəyyən olunub. Bu gün müzakirəyə təqdim olunan qanun layihəsi məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi köçkün statusu ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc isə deyib ki, qanun layihəsi Vətən müharibəsində qazanılan Qələbənin hüquqi nəticəsi olmaqla, məcburi köçkünlük dövründən Böyük Qayıdış mərhələsinə keçidi təsbit edir. Onun sözlərinə görə, qanun layihəsi qalibiyyət dövrünün reallıqlarına uyğun məcburi köçkünlərin uzunmüddətli köçkünlük vəziyyətindən çıxarılaraq, daimi yaşayış və sabit həyat şəraiti ilə təmin olunmasının dəqiq hüquqi mexanizmlərini yaradır. Yeni hüquqi tənzimləmə müvəqqəti məskunlaşma modelini daimi məskunlaşma və mülkiyyət hüququ ilə əvəz edir, bununla da işğaldan azad edilmiş ərazilərə qayıdan məcburi köçkünlər öz evlərinin tam hüquqlu sahibi olurlar. Qanun layihəsi mülkiyyət hüququnun təmin olunması, daimi məskunlaşmanın təşviqi və sosial müdafiə tədbirlərinin davamlılığının qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

Sonra iclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək, qanun layihəsinə əsasən məcburi köçkünlərin konstitusion mülkiyyət hüququnun bərpa olunduğunu, onun icra mexanizminin yaradıldığını söyləyib. O, mülkiyyət hüququnun bərpasını insan hüquqlarının təntənəsi kimi dəyərləndirib. Layihənin konseptual, hüquqi, vətəndaşların sosial müdafiəsi, insan hüquqlarının təmin edilməsi baxımından əhəmiyyətli olduğunu deyib, rəhbərlik etdiyi komitənin sənədi dəstəklədiyini bildirib.

Məsələ ətrafında aparılan müzakirələrdə deputatlar öz fikirlərini, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov və Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsi rəisinin müavini Səkinə Əliyeva çıxış ediblər, layihə barədə fikirlərini bildiriblər. Onlar qanun layihəsinin Böyük Qayıdış prosesinin hüquqi əsaslarının möhkəmləndirilməsinə, məcburi köçkünlərin mənzil və mülkiyyət hüquqlarının daha dolğun təmin olunmasına xidmət etdiyini vurğulayıblar. Həmçinin layihədə nəzərdə tutulan yeni hüquqi mexanizmlərin tətbiqi ilə bağlı məsələlərə aydınlıq gətiriblər.

Sonda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*Nardar BAYRAMLI*

# Sərhədləri aşan həmrəylik!

## Azərbaycanın dünyadakı səsi necə formalaşır?

Sürətlə dəyişən siyasi, iqtisadi və mədəni reallıqlar fonunda diaspor quruculuğu hər bir xalqın milli maraqlarının beynəlxalq müstəvidə qorunması, tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün strateji əhəmiyyət kəsb edir. Azərbaycan diasporunun formalaşması və inkişafı ölkəmizin xarici siyasət prioritetləri arasında xüsusi yer tutur. Müxtəlif ölkələrdə yaşayan milyonlarla azərbaycanlının təşkilatlanması, vahid məqsəd və ideya ətrafında birləşməsi diaspor quruculuğunun əsas məqsədlərindən biridir. Bu fəaliyyət dövlətimizin beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə də mühüm töhfələr verir.

Bu gün dünyanın fərqli qitələrində yaşayan azərbaycanlılar müxtəlif peşələrdə, müxtəlif ictimai mövqelərdə və fərqli həyat şəraitlərində fəaliyyət göstərirlər. Həmin soydaşlarımızı birləşdirən ən mühüm dəyər Azərbaycan sevgisi, milli mənsubiyyət hissi və tarixi köklərə bağlılıqdır. Məhz bu mənəvi bağ dünya azərbaycanlılarının həmrəyliyinin əsasını təşkil edir və onların bir xalqın ayrılmaz hissəsi olduqlarını nümayiş etdirir.

### “Azərbaycan Ev”ləri milli kimliyimizin xaricdəki ünvanıdır

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən politoloq Tural İsmayılov bildirib ki, Azərbaycan diaspor təşkilatları dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərərək ölkəmizin zəngin tarixi, qədim mədəniyyəti, multikultural dəyərləri, iqtisadi nailiyyətləri və beynəlxalq əməkdaşlığa mühüm töhfələr verir. Onun sözlərinə görə, eyni zamanda xalqımızın üzləşdiyi tarixi ədalətsizliklər, xüsusilə də, torpaqlarımızın işğalı dövründə baş vermiş hadisələr və xalqımıza qarşı törədilmiş cinayətlər barədə dünya ictimaiyyətinin məlumatlandırılması istiqamətində mühüm təşəbbüslər həyata keçirilir: “Əsas hədəf dünya azərbaycanlılarını birləşdirmək, onların səsini beynəlxalq aləmdə eşitdirmək və milli maraqları müdafiə etməkdir. Bu məqsədlə Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətləri genişləndirilib və daha çevik mexanizmlərlə təchiz olunub. Komitə müxtəlif ölkələrdə diaspor şuraları və koordinatorları təyin etməklə regional şəbəkələşməni təmin edir.

Eyni zamanda “Azərbaycan Evi” layihələri ilə ölkələr üzrə fiziki məkanlar yaradılır, bu da ictimai diplomatiyanın dayağına çevrilir. Azərbaycanlı tələbələrin, ziyalıların və gənc fəalların diaspor hərəkatına cəlb edilməsi məqsədilə “Diaspor Gənclərinin Yay Düşərgəsi” kimi tədbirlər təşkil olunur. Dövlət bu yolla diaspor təşkilatlarının intellektual bazasını formalaşdırmağa çalışır”.

T.İsmayılovun sözlərinə görə, unutmaq olmaz ki, həmrəylik yalnız xüsusi günlərdə və tədbirlərdə nümayiş etdirilən birlik deyil: “Həmrəylik gündəlik həyatın bütün sahələrində özünü göstərən, insanların bir-birinə dəstəyində, dəyərlərə hörmətində və ortaq məqsədlər uğrunda birgə fəaliyyətində təzahür edən güclü mənəvi qüvvədi. Məhz bu qüvvə Azərbaycan xalqının dünyanın harasında yaşamasından asılı olmayaraq, vahid xalq kimi tanınmasının əsas şərtlərindən biridir”.




### Diaspor diplomatiyasının yeni dövrü

Politoloq onu da vurğulayıb ki, yeni mərhələdə dövlət diaspor diplomatiyasını peşəkar və davamlı lobbiçilik modelinə çevirmək niyyətindədir: “Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların elm, təhsil, biznes, mədəniyyət, siyasət və digər sahələrdə qazandıqları uğurlar həm Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsinə xidmət edir, həm də gənc nəslin milli kimliyə bağlılıq ruhunda yetişməsinə stimul verir. Bunun nəticəsində xaricdə yaşayan soydaşlarımız yaşadıqları cəmiyyətlərin fəal üzvləri olmaqla yanaşı, öz milli köklərini qoruyub saxlayan və gələcək nəsillərə ötürən mühüm bir körpü rolunu oynayırlar.

Müasir informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə diaspor quruculuğu və lobbiçilik fəaliyyəti ənənəvi üsullarla yanaşı rəqəmsal platformalarda da həyata keçirilir. Sosial şəbəkələr, beynəlxalq media resursları və müxtəlif kommunikasiya vasitələri vasitəsilə Azərbaycan həqiqətlərinin daha geniş auditoriyalara çatdırılması mümkün olur. Bu da milli maraqlarımızın müdafiəsində yeni imkanlar yaradır.

Nəticə etibarilə, diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi bir-birini tamamlayan, Azərbaycanın milli maraqlarının qorunmasına, dövlətimizin beynəlxalq mövqeyinin güclənməsinə və xalqımızın dünyada daha güclü şəkildə təmsil olunmasına xidmət edən mühüm amillərdir. Hər bir azərbaycanlının bu prosesdə fəal iştirak etməsi birliyin, həmrəyliyin və gələcək uğurların əsas təminatlarından biri hesab olunur”.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*

# Bakıda Amritsar hadisələri müzakirə olunub

## Bakı Təşəbbüs Qrupu ilə Beynəlxalq Siqh Federasiyası arasında Anlaşma Memorandumu imzalanıb

İyunun 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə ölkəmizdə Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr edilmiş “İyun 1984, Amritsar hadisələri: Hindistanın etnik azlıqlara qarşı transmilli repressiyaları soyqırımı kontekstində” adlı beynəlxalq konfrans keçirilib. Hindistan hökumətinin repressiv və sistemli ayrı-seçkilik siyasətindən əziyyət çəkən Dalit icmasının nümayəndələri də ilk dəfə olaraq ölkəmizdə keçirilən tədbirə qatılıblar. Tədbirdə, həmçinin siqh icmasının Kanada, Böyük Britaniya, Niderland, Almaniya, İsveçrə, Avstraliya və ABŞ-dakı nüfuzlu nümayəndələri, həmçinin beyin mərkəzlərinin rəhbərləri, insan hüquqları və etnik azlıqlar sahəsində fəaliyyət göstərən ekspertlər, Hindistan hökumətinin repressiv, irqçilik və təqib siyasətinin birbaşa qurbanı olan şəxslər iştirak ediblər.







Konfransda çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, son 40 il ərzində bu təzyiq və zorakılıq formaları dünya miqyasında transmilli repressiya xarakteri alaraq genişlənib. “Beynəlxalq Siqh Federasiyası ilə son beş ay ərzində həyata keçirdiyimiz əməkdaşlıq çərçivəsində Bakı Təşəbbüs Qrupu bu mühüm mövzulara həsr olunmuş iki beynəlxalq konfransı uğurla təşkil edib. Bundan əlavə, biz birgə hesabat hazırlayıb dərc etmişik. Həmin hesabat BMT-nin İnsan Hüquqları Şurasının Cenevrədə keçirilən 61-ci sessiyası zamanı təqdim olunub. Mən inanıram ki, Beynəlxalq Siqh Federasiyası ilə əməkdaşlığımız etnik azlıqların hüquqlarının və ümumilikdə insan hüquqlarının müdafiəsinə mühüm töhfə verəcək”, - deyə A.Abbasov vurğulayıb.

Kanada Siqh Federasiyasının sədri Bual Moninder Sinqh isə deyib ki, Siqh xalqının Azərbaycanla çox dərin tarixi bağları var: “Son 5-6 ay ərzində mən dəfələrlə Bakıda olmuşam və tam məsuliyyətlə deyə bilərəm ki, burada hər zaman xoş niyyətlə qarşılanmışıq. Bizə burada dialoq aparmaq üçün geniş imkanlar yaradılıb”. O bildirib ki, azadlıq axtarışında olan bir xalq üçün onlara göstərilən bu hörmət və ləyaqətli münasibət çox böyük əhəmiyyət kəsb edir: “Hindistanın dezinformasiya ilə siqhləri dünyaya “ekstremist” və “terrorçu” kimi təqdim etdiyi bir vaxtda, Bakı platforması bizim üçün əvəzsizdir. Eyni zamanda, Hindutva rejimi bizə qarşı assimilyasiya siyasəti yürüdür. Belə bir dönəmdə Bakıda şahidi olduğumuz beynəlxalq həmrəylik böyük əhəmiyyət kəsb edir”.

Tədbirdə çıxış edən Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov deyib ki, Amritsar hadisələri, sadəcə, bir xalqın tarixinin bir səhifəsi deyil. Bu, həmçinin beynəlxalq hüquq, insan hüquqları, eləcə də etnik və dini azlıqların qorunması kontekstində qlobal müzakirələrin mövzusudur. Onun sözlərinə görə, ali təhsil müəssisələrinin missiyası təkcə bilik və bacarıqların ötürülməsi ilə məhdudlaşmır. Bura, həmçinin sülhün möhkəmləndirilməsinə, mədəni kimliyin qorunub saxlanmasına və insan hüquqlarının müdafiəsinə töhfə vermək daxildir. “Bu konfrans, sadəcə, akademik fikir mübadiləsi deyil, həm də ədalət və sülh naminə kollektiv iradənin nümayişi olacaq”,- deyə Ş. Pənahov əlavə edib.

Böyük Britaniya Siqh Federasiyasının icraçı direktoru Dabindercit Sinqh Sidhu isə bildirib ki, 1948-ci il BMT Konvensiyasına əsasən, bir əməlin genosid sayılması üçün əsas şərt onun xüsusi bir qrupu qəsdən və tamamilə, qismən məhv etmək niyyəti ilə törədilməsidir. Siqhlər də beynəlxalq hüquq tərəfindən bu konvensiya çərçivəsində qorunan xüsusi etnik və dini qrupdur. Onun sözlərinə görə, 1984-cü ilin iyununda Amritsarda baş verən hadisələrin genosid olub-olmadığını qiymətləndirərkən üç əsas meyar nəzərə alınır. Siqhlərin öldürülməsi, onlara ciddi fiziki və ya psixoloji zərər vurulması və onların məhvinə səbəb ola biləcək həyat şəraitinin qəsdən yaradılması. “Hindistan Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasını qəbul etmədiyindən, məsələni Genosid Konvensiyasını ratifikasiya etmiş dövlətlərin milli məhkəmələrində qaldırmaq mümkündür”, - deyə o əlavə edib.

Kanada Siqh Federasiyasının hüquq məsləhətçisi Virrinq Prabcot Sinqh isə deyib ki, 1984-cü ilin iyun və noyabr hadisələri ayrı-ayrı və təsadüfi hadisələr deyil. Bu hadisələr daha uzun tarixi və siyasi proseslərin nəticəsidir. O bildirib ki, bu hadisələri anlamaq üçün Pəncabın 1849-cu ildə Britaniya imperiyasının nəzarəti altına keçməsindən sonrakı dövrə nəzər salmaq vacibdir: “Bu yanaşmaya görə, müstəmləkə idarəçiliyi yalnız siyasi nəzarətlə məhdudlaşmayıb, həm də idarəetmə, təhsil, hüquq və ictimai institutlar vasitəsilə regionun sosial həyatına təsir göstərib. Bu proseslər siqh icmasının siyasi, mədəni və dini kimliyinin formalaşmasına və inkişafına təsir edib. Bu gün belə mövzuların Azərbaycanda müzakirə olunması insan hüquqları, etnik və dini azlıqların hüquqlarının qorunması, eləcə də beynəlxalq hüququn rolunun dəyərləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır”.

Konfransda digər çıxış edənlər də Hindistan hökumətinin etnik və dini azlıqlara, xüsusilə Siqh və Dalit diasporlarının nümayəndələrinə və onların ailə üzvlərinə qarşı həyata keçirdiyi transmilli repressiya və sistemli təqib siyasətinin beynəlxalq təşkilatların gündəliyində daimi saxlanılması məsələlərindən bəhs ediblər. Eyni zamanda, tədbirdə repressiyalardan zərər çəkmiş diaspor təşkilatları arasında koordinasiyalı əməkdaşlığın gücləndirilməsi, transmilli təqiblərə qarşı ortaq hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi və beynəlxalq platformalarda birgə fəaliyyət istiqamətində fikir mübadiləsi aparılıb.

Bununla yanaşı, 1984-cü ilin iyun ayında Amritsar hadisələri zamanı Hindistan tərəfindən siqh icmasına və onların dini-mədəni dəyərlərinə qarşı həyata keçirilmiş silahlı hücumlar, zorakılıq aktları və minlərlə günahsız insanın həlak olması faktlarına beynəlxalq səviyyədə hüquqi qiymət verilməsi və Hindistan hökumətinin etnik azlıqların hüquqları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərinə əməl etməsi məsələləri ətrafında müzakirələr aparılıb.

Vurğulanıb ki, 1984-cü ilin iyun ayının əvvəllərindən etibarən Hindistan hökuməti tərəfindən siqh icmasının müqəddəs dini məkanlarından biri hesab edilən Amritsardakı Harmandir Sahib (Qızıl Məbəd) kompleksinə qarşı həyata keçirilmiş silahlı hücum, icmanın dini-mənəvi dəyərlərinə, ibadət azadlığına və tarixi-mədəni irsinə qarşı yönələn dövlət səviyyəsində təşkil edilmiş zorakılıq aktıdır. Beynəlxalq qeyri-hökumət təşkilatlarının hesabatları, müstəqil mənbələr və şahid ifadələri əsasında toplanmış məlumatlara əsasən, silahlı hücum nəticəsində Amritsar və ətraf şəhərlərdə 8 minə qədər mülki şəxsin həyatını itirdiyi bildirilir.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu (BTQ) ilə Beynəlxalq Siqh Federasiyası arasında akademik, tarixi və mədəni tədqiqatlar sahəsində əməkdaşlıq çərçivəsini müəyyən edən Anlaşma Memorandumu imzalanıb. Sənədi Bakı Təşəbbüs Qrupu adından Abbas Abbasov, Beynəlxalq Siqh Federasiyasının adından isə Bual Moninder Sinqh və Sidhu Dabindercit Sinqh imzalayıblar. Memorandumun əsas məqsədi tərəflər arasında akademik, tarixi və mədəni tədqiqatlar sahəsində, xüsusilə də tarixi təmaslar və mədəni qarşılıqlı əlaqələr kontekstində əməkdaşlıq platformasının qurulmasıdır.

İmzalanan sənəd çərçivəsində regionda, o cümlədən Bakıda və Atəşgah məbədində siqh səyyahlarının, tacirlərinin və dini xadimlərinin mövcudluğuna dair tarixi mənbələrin, elmi materialların və mədəni sübutların birgə araşdırılması nəzərdə tutulur. Bu əməkdaşlıq hər hansı bir akademik tədqiqatın nəticəsini qabaqcadan müəyyən etmədən, elmi dialoqun yaradılmasına, obyektiv araşdırmaların aparılmasına, mədəni anlaşmaya və tarixi yaddaşın qorunmasına xidmət edəcək.

Razılaşmaya əsasən, hər iki təşkilat Azərbaycanda və xaricdə fəaliyyət göstərən universitetlər, tədqiqat mərkəzləri, arxivlər, muzeylər və mədəniyyət müəssisələri ilə sıx tərəfdaşlıq edəcək. Prosesə tanınmış tədqiqatçılar, tarixçilər, mədəniyyət ekspertləri və akademiklər cəlb olunacaq. Tərəflər ekspertlər səviyyəsində akademik mübadiləni təmin etmək məqsədilə birgə konfranslar, dəyirmi masalar, mühazirələr, seminarlar, sərgilər təşkil edəcək və dinlərarası dialoqun inkişafına töhfə verəcəklər.

Qeyd edək ki, sənəd tərəflərin qarşılıqlı niyyətlərini əks etdirir və beynəlxalq hüquqa əsasən hüquqi, maliyyə və ya inzibati öhdəlik yaratmır.

*Nardar BAYRAMLI*

# Rusiya-Ukrayna müharibəsini bitirməyən səbəblər

Rusiya - Ukrayna müharibəsi tərəflərin qarşılıqlı hücumları ilə genişlənir. Son günlər Ukrayna ordusu Rusiyanın hərbi obyektlərini, neft sənayesinə aid olan müəssisələri hədəfə alıb. Prezident Volodimir Zelenski ölkəsinin xüsusi təyinatlı və kəşfiyyat strukturlarının birgə iştirakı ilə Rusiyanın daxili ərazilərində yerləşən strateji hərbi və sənaye obyektlərinə qarşı tarixin “ən qorxulu və uzaq mənzilli” zərbələrinin endirildiyini elan edib. Ukrayna lideri öz rəsmi “Telegram” kanalında yaydığı bəyanatda Ukrayna Təhlükəsizlik Xidməti (SBU), Pilotsuz Sistemlər Qüvvələri (SBS), Xüsusi Əməliyyat Qüvvələri (SSO), Baş Kəşfiyyat İdarəsi (GUR) və Dövlət Sərhəd Xidmətinin (DPSU) iştirakı ilə keçirilən irimiqyaslı gecə əməliyyatının şok detallarını açıqlayıb. Onun sözlərinə görə, endirilən dəqiq zərbələr nəticəsində Ukrayna sərhədindən 1100 kilometr məsafədə yerləşən, Rusiyanın hərbi sənayesinə aid ən böyük strateji mərkəzlərdən biri - Sankt-Peterburq neft terminalı daxildən partladılaraq ağır dərəcədə zədələnib.

## Peskov: Ukrayna ordusu Donbasdan çıxarsa...

Bununla yanaşı, Ukrayna ordusu Rusiya Hərbi Dəniz Qüvvələrinin əsas mərkəzlərindən sayılan Kronştadt hərbi bazasındakı hərbi hədəfləri tamamilə sıradan çıxarıb. Ukrayna dronlarının digər strateji hədəfi isə cəbhə xəttindən təxminən 600 kilometr uzaqlıqda, Rusiya ordusu üçün ağır silah və sursat istehsal edən Tambov vilayətindəki nəhəng hərbi sənaye müəssisəsi olub. “Məhv edilən hər bir hədəfə və göstərdikləri yüksək dəqiqliyə görə hərbçilərimizə sonsuz minnətdaram. Ukraynanın uzaq mənzilli strateji zərbə planı rəsmi Kiyevin sülhü yaxınlaşdırmaq strategiyasına uyğun olaraq tam dəqiqliklə icra edilir” - deyə, Zelenski vurğulayıb.

Öz növbəsində, Rusiya ordusu da Ukraynadakı hərbi hədəflərə hücumların sayını artırıb. Raket hücumları zamanı yaşayış binaları və mülki insanlar da zərər görüb.

Belə bir şəraitdə müharibənin bitməsi üçün aparılan sülh danışıqları hələ ki, bərpa olunmayıb. Lakin Moskva münaqişənin başa çatması üçün şərtini bir daha açıqlayıb. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya Ukraynadakı məqsədlərinə çatacaq, lakin Moskva yenə də sülh danışıqları yolu ilə nəticə əldə etməyə üstünlük verir. Onun sözlərinə görə, əgər Ukrayna tərəfi prosesi təxirə salmağa, əsl sülh danışıqlarından və dinc həll yoluna aparacaq ciddi qərarlardan imtina etməyə davam edərsə, xüsusi hərbi əməliyyat davam edəcək. Kremlin sözçüsü əlavə edib ki, Prezident Volodimir Zelenski Ukrayna qoşunlarına “Rusiya bölgələrini tərk etməyi” əmr edərsə, xüsusi hərbi əməliyyat sutkanın sonuna qədər başa çata bilər. Peskov bunu deyərkən, Donbası nəzərdə tutub.



Lakin Kiyev Moskvanın bu şərtini qəbulolunmaz hesab edir və Rusiya ordusunun Ukraynanın beynəlxalq hüquq çərçivəsində tanınan ərazilərindən çıxarılmasını vacib sayır. Rəsmi səviyyədə dəfələrlə Ukraynanın ərazi güzəştinə getməyəcəyi bəyan olunub.

## NATO-nun qərarı Kiyevi qane etmir

Amma müharibənin bitməməsinin səbəbi yalnız bu deyil. Ukrayna və müttəfiqləri hesab edirlər ki, Rusiyanın qarşısında Kiyevin hərbi üstünlüyünü artırmaq sülhü tezləşdirə bilər. Ona görə də, Ukrayna bu məsələdə NATO müttəfiqlərinin köməyinə ümid edir. Xatırladaq ki, aprelin sonlarında alyansın Baş katibi Mark Rutte təşkilata üzv dövlətlərin ÜDM-in 0,25 faizini Ukraynaya ayırmasını təklif etmişdi. Əgər onun təklifi müttəfiqlər tərəfindən dəstəklənərdisə, alyansın illik ayırdığı vəsait üç dəfə artaraq, 143 milyard dollara çatmalı idi. Bu məsələ İsveçin Helsinqborq şəhərində keçirilən NATO Xarici İşlər Nazirlərinin iclasında müzakirə olunub. Qərarın qəbulu üçün alyansın bütün üzvlərinin razılığı tələb edilirdi.

Lakin müzakirələr zamanı NATO ölkələrinin Ukraynaya hər il ÜDM-in ən azı 0,25 faizi həcmində hərbi yardım göstərməsini nəzərdə tutan təşəbbüs alyans daxilində bloklanıb. “The Telegraph” qəzetinin məlumatına görə, Böyük Britaniya, Fransa, İtaliya və İspaniya bu təşəbbüsə qarşı çıxıb. Məlumata əsasən, plan NATO üzvlərinin Ukraynaya hərbi dəstəyini daimi və məcburi mexanizmə çevirməyi nəzərdə tuturdu. Bununla belə, təşəbbüs alyans daxilində tam dəstək almayıb. Bildirilir ki, Polşa, Niderland, Baltikyanı ölkələr və Şimali Avropa dövlətləri daxil olmaqla ən azı yeddi ölkə təklifi müdafiə edib. Qeyd olunur ki, həmin ölkələrin bir qismi artıq Ukraynaya yardım üçün ÜDM-lərinin 0,25 faizindən daha çox vəsait ayırır.

Bundan əlavə, Avropa İttifaqı (Aİ) 2026-2027-ci illərdə Ukraynaya 60 milyard avro hərbi, 30 milyard avro büdcə yardımı krediti ayırıb. Kredit Rusiyanın dondurulmuş aktivlərindən əldə olunan gəlirlər hesabına qaytarılacaq.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski ilə telefon danışığından sonra “X” sosial şəbəkəsində bildirib ki, Avropa İttifaqı təkcə bu il Ukraynanın hərbi ehtiyaclarını ödəmək üçün 28,3 milyard avro kredit ayıracaq: “Rusiyanın şiddətlənən hücumları fonunda Avropanın Ukraynaya tam dəstəyini təsdiqlədim. Ukraynanı dəstəkləmək üçün ayrılan kredit mühüm töhfə verəcək. Təkcə bu il Avropa Ukraynanın hərbi ehtiyaclarını ödəmək üçün 28,3 milyard avro təmin edəcək”. Onun sözlərinə görə, Ukrayna həmçinin Avropanın dron istehsalı layihələrinə tam inteqrasiya olunacaq: “Hava hücumundan müdafiə, eləcə də dron və dron əleyhinə imkanlar Avropanın ən təcili müdafiə prioritetləri arasındadır. Ukrayna isə bu səylərə tam inteqrasiya olunacaq”.

Fon der Lyayen qeyd edib ki, tərəflər həmçinin Ukraynanın Aİ üzvlüyünə gedən yolunu müzakirə ediblər: “Qoşulma prosesində irəliyə doğru qətiyyətli addımlar atmaq üçün qarşıdakı həftələr çox vacib olacaq”. Lakin bütün bunların fonunda Kiyev Aİ və NATO-dan daha çox dəstək istəyir.

## Varşava-Kiyev münasibətlərində gərginlik...

Digər tərəfdən, Polşa ilə Ukrayna arasında münasibətlərin soyuqlaşması da sülhü əngəlləyən səbəblərdən biri hesab oluna bilər. Belə ki, son günlər Polşa-Ukrayna münasibətlərində yeni və kifayət qədər ciddi siyasi gərginlik yaranıb. Varşava ilə Kiyev arasında tarix mövzusu üzərindən başlayan mübahisə artıq dövlət başçıları səviyyəsində qarşılıqlı ittihamlar mərhələsinə keçib. Polşa prezidenti Karol Navrotski Ukrayna lideri Volodimir Zelenskinin son qərarını sərt şəkildə tənqid edib və bunun Ukraynanın Avropa İttifaqına inteqrasiya perspektivlərinə zərbə vurduğunu bəyan edib.

Məsələ Zelenskinin Ukrayna Silahlı Qüvvələrinin xüsusi təyinatlı bölmələrindən birinə “UPA qəhrəmanları” adının verilməsi ilə bağlı qərarından sonra gündəmə gəlib. Polşa rəhbərliyi bu addımı son dərəcə həssas məsələ kimi qiymətləndirir. Çünki Varşavanın mövqeyinə görə, İkinci Dünya müharibəsi illərində fəaliyyət göstərən Ukrayna Üsyançı Ordusu - UPA Polşa əhalisinə qarşı Volın və Qərbi Ukrayna bölgələrində kütləvi qətliamlar törədib. Polşa tarixşünaslığı həmin hadisələri soyqırımı və etnik təmizləmə kimi qiymətləndirir.

Məhz bu fonda çıxış edən Karol Navrotski Zelenskinin qərarını “Rusiyanın təbliğatına əlavə material vermək” kimi dəyərləndirib. Polşa Prezidenti bildirib ki, Ukrayna rəhbərinin bu addımı ölkəsinin Avropa siyasi məkanına inteqrasiyasına dair ciddi suallar yaradır. Onun sözlərinə görə, “qatillərin və banditlərin qəhrəmanlaşdırılması” Avropa dəyərləri ilə uzlaşmır və belə yanaşma Ukraynanın hələ də Avropa ailəsinə tam hazır olmadığını göstərir. O, xüsusilə vurğulayıb ki, Polşa Ukraynanın Rusiyaya qarşı mübarizəsini dəstəkləsə də, tarix məsələlərində güzəştə getmək niyyətində deyil.

Bununla yanaşı, Polşa Prezidenti daha bir rezonans doğuran açıqlama verib. Navrotski Zelenskinin vaxtilə aldığı Polşanın ən yüksək dövlət mükafatı sayılan “Ağ Qartal” ordenindən məhrum edilməsi təşəbbüsü ilə çıxış edəcəyini açıqlayıb. Onun sözlərinə görə, məsələ yaxın günlərdə müvafiq qurumlarda müzakirəyə çıxarılacaq. Zelenski həmin ordeni 2023-cü ildə o vaxtkı Polşa prezidenti Andjey Dudanın əlindən almışdı. Orden Ukrayna liderinə Polşa-Ukrayna münasibətlərinin inkişafına və Avropanın təhlükəsizliyinə verdiyi töhfələrə görə təqdim edilmişdi.

*N.BAYRAMLI*

# ABŞ-İran müharibəsi yenidən alovlanır?

## Tərəflər qarşılıqlı olaraq raket hücumu həyata keçiriblər

ABŞ-la İran arasında atəşkəs əldə edildikdən sonra tərəflər yekun sülhlə bağlı hələ də razılığa gələ bilmir. Xatırladaq ki, fevralın 28-də ABŞ və İsrail İrana qarşı hərbi əməliyyatlara başlayıb və bir sıra şəhərlərə hava zərbələri endirilib. Həmin gün zərbələr nəticəsində İranın Ali rəhbəri Əli Xamenei öldürülüb. İran buna cavab olaraq İsrail ərazisinə raket zərbələri endirib və Fars körfəzi ölkələrindəki ABŞ hərbi bazalarına hücum edib. İran, ABŞ və onların müttəfiqləri aprelin 8-ə keçən gecə atəşkəs razılaşmasına nail olublar. Tramp sonradan atəşkəsi qeyri-müəyyən müddətə uzadıb. Tərəflər münaqişəni həll etmək üçün Pakistanda danışıqlar aparıblar, lakin 11-12 apreldə keçirilən ilk raund heç bir nəticə verməyib. ABŞ Tehrana təzyiq göstərmək üçün İran limanlarını və Hörmüz boğazından keçidi blokadaya alıb. İran da öz növbəsində Fars körfəzinə gedən gəmilər üçün Hörmüz boğazının blokadasını elan edib. Regionda dinamik şəkildə dəyişən vəziyyət qlobal enerji böhranına səbəb olub.

Ötən həftə isə ABŞ Prezidenti Donald Trampın İranla münaqişənin həlli üçün saziş layihəsinin şərtlərini sərtləşdirdiyi barədə məlumatlar yayıldı. Məlumatı “The New York Times” nəşri mənbələrə istinadən yayıb. Bildirilirdi ki, yenilənmiş saziş baxılması üçün Tehrana təqdim edilib. Potensial sazişin mətnində edilən dəqiq dəyişikliklər məlum deyil, lakin qəzetin mənbələri Trampın İran aktivlərinin dondurulmasının mümkün ləğvi ilə bağlı müddəalardan narahat olduğunu bildirib. Bundan əlavə, Amerika lideri hesab edir ki, İran ABŞ təkliflərinə kifayət qədər tez cavab vermir.

Adı çəkilməyən ABŞ rəsmisinin sözlərinə görə, Tramp danışıqlar prosesini sürətləndirmək və İrana təzyiq göstərməklə, onu əvvəllər təsdiq üçün İranın ali lideri Ayətullah Müctəba Xameneiyə göndərilmiş ilkin memorandum layihəsini qəbul etməyə inandırmaq üçün şərtləri sərtləşdirib. Qəzet xatırladır ki, Tramp 29 mayda Ağ Evin “Vəziyyət Otağı”nda İranla münaqişə ilə bağlı müşavirləri ilə iki saatlıq görüş keçirib, lakin görüşdən sonra sazişlə bağlı heç bir qərar açıqlamayıb.

## Tramp yazılı təsdiq istəyir

Bununla belə, Donald Tramp öz sosial şəbəkə platformasında İranla mümkün razılaşmanın, əsasən nüvə proqramı ilə bağlı məsələləri əhatə etdiyini bildirib və bu mövzunun sənəddə ətraflı şəkildə əks olunduğunu vurğulayıb.

Ötən gün isə “ABC News” mənbələrinə istinadla məlumat yayıb ki, ABŞ Prezidenti Donald Tramp İranın nüvə proqramı ilə bağlı öhdəliklərini yazılı şəkildə təsdiqləməsini istəyir. Telekanalın məlumatına görə, Vaşinqton və Tehran arasında davam edən danışıqlardakı çıxılmaz vəziyyəti aradan qaldırmaq məqsədilə Tramp ilkin razılaşmanın tərkib hissəsi kimi İranın konkret nüvə güzəştlərini yazılı şəkildə rəsmiləşdirməsini tələb edir. Bildirilir ki, İran tərəfi indiyədək nüvə proqramı ilə bağlı müəyyən şərtlərə əməl edəcəyinə dair yalnız şifahi təminatlar verib. Lakin ABŞ Prezidenti bu öhdəliklərin kifayət qədər etibarlı olmadığını hesab edir.

ABŞ Dövlət katibi Marko Rubio isə Senatda keçirilən dinləmələr zamanı İranın nüvə proqramı ilə bağlı güzəştləri müzakirə etməyə hazır olduğunu bildirib. Bununla yanaşı, o vurğulayıb ki, danışıqların aparılması ABŞ-ı qane edəcək yekun razılaşmanın əldə olunacağına zəmanət vermir. Onun sözlərinə görə, Vaşinqton administrasiyası müəyyən şərtlər daxilində İranın nüvə enerjisindən istifadə etmək imkanına malik olacağına razılaşmağa hazırdır: “Əgər İran nüvə enerjisi istəyirsə, bunu təmin etmək üçün mexanizmlər mövcuddur. Dünyada nüvə enerjisindən istifadə edən, lakin uranı zənginləşdirməyən ölkələr var. Onlar, əlbəttə ki, uranı 60 faizə qədər zənginləşdirmirlər, bunu qayanın altında və ya yeraltında etmirlər. Onların nüvə enerjisinə ehtiyacı varsa, ona sahib ola bilərlər. Bunun üçün müvafiq mexanizmlər mövcuddur. İranın problemi nüvə enerjisinə ehtiyacı olmasında deyil. İranın problemi ondadır ki, onun bütün hərəkətləri nüvə silahı inkişaf etdirmək istəyən ölkənin davranışı ilə uyğun gəlir”.

Rubionun sözlərinə görə, ABŞ-ın İranla danışıqlarda əsas tələblərindən biri Hörmüz boğazının açılmasıdır: “Blokadamızın qaldırılması müqabilində dərhal açılmalıdır. Biz İran neftinin buraxılışına blokada qoyduq və bunu etməmizin səbəbi boğazı bağlamalarıdır”.

## ABŞ ordusu İranın raket və PUA-larını zərərsizləşdirib

Belə bir şəraitdə tərəflər qarşılıqlı olaraq raket hücumu həyata keçiriblər. ABŞ ordusu İran tərəfindən buraxılan raket və pilotsuz uçuş aparatlarını ələ keçirdikdən sonra Qeşm adasında yerüstü idarəetmə mərkəzinə zərbələr endirib. Bu barədə ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) məlumat yayıb. “ABŞ ordusu iyunun 2-də Yaxın Şərqdə İranın hücumlarına cavab olaraq özünümüdafiə məqsədilə bir neçə ballistik raketi, eləcə də dronları uğurla vurub”, - deyə bəyanatda bildirilib.

Komandanlıq vurğulayıb ki, İran beş raket atıb və heç biri hədəflərə dəyməyib, ABŞ ordusu da üç dronu vurub: “ABŞ ordusu, həmçinin Qeşm adasında yerüstü idarəetmə mərkəzinə zərbələr endirib”.



CENTCOM Küveytdəki Amerika qüvvələrinə qarşı İranın PUA hücumunu dəf etdiyini açıqayıb. “Küveytdəki ABŞ qüvvələrinə hücum etməyə çalışan İran dronlarının daha bir dalğası nəzərdə tutulan hədəflərə çata bilməyib. Mərkəzi Komandanlığın hava hücumundan müdafiə qüvvələri bir neçə dronu uğurla vurub”, - deyə qurum “X” sosial şəbəkə hesabında paylaşım edib. Qeyd olunub ki, Amerika hərbçilərindən heç biri xəsarət almayıb.

İslam İnqilabı Keşikçiləri Korpusu isə ABŞ-ın Qeşm adasındakı İran hərbi obyektinə endirdiyi zərbələrə cavab olaraq Bəhreyndə ABŞ Hərbi Dəniz Qüvvələrinin Beşinci Donanmasının qərargahına, eləcə də Amerika hava bazasına raket və pilotsuz uçuş aparatları ilə hücumlar həyata keçirib. Qeyd olunub ki, korpus Hörmüz boğazı yaxınlığında İran neft tankerinə endirilən zərbəyə cavab olaraq ABŞ-a bağlı gəmiyə hücum edib.

## Tehran Vaşinqtonu beynəlxalq hüququ pozmaqda ittiham edib

İran Xarici İşlər Nazirliyi ABŞ ordusunun Hörmüz boğazında İran tankerinə və Qeşm adasında telekommunikasiya qülləsinə hücumlarını pisləyərək, Vaşinqtonun atəşkəs razılaşmasını və beynəlxalq hüququ pozduğunu bildirib. Rəsmi Tehran “ABŞ-ın region ölkələrinin ərazisi və imkanlarından İran əleyhinə təcavüzkar planların həyata keçirilməsi üçün istifadə etməsini” qınayıb, eyni zamanda, Küveyt və Bəhreynin ötən gecə ABŞ-ın hücumlarına görə birbaşa məsuliyyət daşıdığını qeyd edib.

Bəyanatda vurğulanıb ki, hər hansı ölkənin təcavüzkar tərəflərə İran əleyhinə hərbi hücumun həyata keçirilməsi və ya dəstəklənməsi üçün öz quru, dəniz və hava ərazisindən, yaxud həmin ərazidə yerləşən bazalardan istifadə etməyə icazə verməsi beynəlxalq hüququn əsas qaydalarının və mehriban qonşuluq prinsipinin açıq şəkildə pozulmasıdır. Tehran özünümüdafiə hüququnu özündə saxladığını və gələcək hücumların mənbəyini hədəf almaq da daxil olmaqla, bütün mövcud vasitələrdən istifadə edəcəyini bəyan edib.

Küveytin Mülki Aviasiya Baş İdarəsi isə Küveyt Beynəlxalq Hava Limanının əsas (T1) sərnişin terminalının İranın pilotsuz uçuş aparatları və raketləri ilə vurulmasından sonra fövqəladə hallar planının işə salındığını açıqlayıb. Hücum nəticəsində hava limanının bir sıra obyektlərinə ciddi ziyan dəyib, xəsarət alanlar var. Bəyanata əsasən, təhlükəsizlik məqsədilə Küveyt Beynəlxalq Hava Limanından həyata keçirilən bütün reyslər dayandırılıb, ölkəyə gələn təyyarələr isə növbəti göstərişədək alternativ hava limanlarına yönləndirilib. Texniki, təhlükəsizlik və fövqəladə hallar üzrə qruplar obyektlərə dəyən ziyanın həcmini qiymətləndirir, hücumun nəticələrinin aradan qaldırılması üçün tədbirlər görürlər. Eyni zamanda, xəsarət alanların vəziyyəti nəzarətdə saxlanılır, hava limanında sərnişinlərin və əməkdaşların təhlükəsizliyinin təmin olunması üçün zəruri addımlar atılır.

Küveyt Müdafiə Nazirliyi isə vətəndaşlara və ölkədə yaşayan əcnəbilərə müraciət edərək, hava hücumlarının qarşısının alınması zamanı yaranmış qalıqlara, qəlpələrə və mənşəyi məlum olmayan əşyalara yaxınlaşmamağa çağırıb. Nazirlik bu cür predmetlərin ictimai təhlükəsizlik üçün risk yarada biləcəyini vurğulayıb, onların aşkarlanması halında dərhal aidiyyəti qurumlara məlumat verilməsini tövsiyə edib.

*N.BAYRAMLI*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Körpə ürəklərdə müharibənin izləri...

## Gələcəyi əlindən alınan uşaqların günü

Dünyanın müxtəlif bölgələrində baş verən müharibələr, silahlı münaqişələr, zorakılıq halları və aqressiv davranışlar nəticəsində ən ağır zərbəni alanlar arasında uşaqlar xüsusi yer tutur. Onlar məkrli oyunların, bitib-tükənməyən təmənnaların, ailədaxili münaqişənin qurbanına çevrilirlər. Təəssüf ki, bəziləri sevgiyə, qayğıya daha çox ehtiyac duyduqları bir zamanda fəlakətlərlə üzləşir, sevincləri, gülüşləri əllərindən alınır, aqressiyaların qurbanı olurlar. Onlar nə baş verən hadisələrin səbəbkarıdır, nə də yaranmış faciələrin qarşısını almaq gücünə malikdirlər. Lakin həyatlarının ən gözəl və qayğısız dövrlərini qorxu, həyəcan, itkilər və dərin psixoloji travmalar içərisində keçirmək məcburiyyətində qalırlar.

Aqressiyanın qurbanına çevrilən uşaqlar təkcə fiziki təhlükələrlə üz-üzə qalmırlar, eyni zamanda onların gələcəyə olan ümidləri, özlərinə və ətraf aləmə olan inamları da sarsılır. Hər gün eşitdikləri partlayış səsləri, şahidi olduqları dağıntılar və itirdikləri yaxın insanlar onların uşaqlıq dünyasını geri dönməz şəkildə dəyişdirir.

### Dünyanın 70-dən çox ölkəsində...

Statistik göstəricilərə əsasən, dünyada hər il minlərlə uşaq aqressiyanın qurbanına çevrilir. Müxtəlif ölkələrdə hər il minlərlə uşaq minaya düşərək, müharibələrin günahsız qurbanı olaraq həyatını və ya sağlamlığını itirir. Dünyada 70-dən çox ölkədə basdırılan 60 milyondan çox minanın qurbanı bəzən uşaqlar da olur - aqressiyanın qurbanı...

İyunun 4-nü dünya ölkələri Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü kimi qeyd edir. Həmin gün dünyanın müharibə adlı fəlakətinin, dəhşətli bəlasının günahsız qurbanları anılır. Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası 1982-ci il avqustun 19-da Fələstin məsələsi üzrə xüsusi sessiyasında aqressiya və təcavüzün qurbanı olan günahsız uşaqların xatirəsini iyunun 4-ü Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü kimi anmağı qərara alıb.

Hərbi münaqişələr zonasında yaşayan uşaqlar - gələcəyi olmayan uşaqlardır. Müharibələrdə yalnız əsgərlərin deyil, uşaqların da həlak olduğunu unutmamaq üçün BMT bu günü təsis edib. Bu əlamətdar gün münasibətilə müharibə və zorakılıq nəticəsində həyatını itirən bütün uşaqların xatirəsini dərin ehtiramla yad edir, müxtəlif ölkələrdə çətin şəraitdə yaşayan, ağrı və məhrumiyyətlərə baxmayaraq yaşamağa, öyrənməyə və gələcəyə ümid etməyə davam edən uşaqlara həmrəylik göstərir. Hər bir uşaq təhlükəsiz, xoşbəxt və qayğısız uşaqlıq yaşamağa layiqdir, çünki onlar dünyanın ən dəyərli sərvəti və gələcəyin qurucularıdır.

### Gülüşləri əllərindən alınan körpələr...

Müharibələr xalqımızın da yaddaşında ağrı-acılarla dolu silinməz izlər buraxıb. Azərbaycana qarşı 20-ci əsrin sonlarından torpaq iddiası adı altında təxribatlara başlayan ermənilər neçə-neçə günahsız uşağın həyatına son qoydu. Birinci Qarabağ müharibəsi illərində, ümumilikdə, 200-ə yaxın azərbaycanlı uşaq qətlə yetirildi. Təkcə Xocalı soyqırımı zamanı ermənilər tərəfindən 63 uşaq öldürüldü. 25 uşaq hər iki valideynini, 130-u isə bir valideynini itirdi.

Birinci Qarabağ müharibəsi zamanı əsir və itkin düşmüş, girov götürülmüş Azərbaycan vətəndaşları arasında uşaqlar da az olmadı. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində 3890 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Rəsmi qeydiyyata alınmış itkinlərin 71 nəfəri uşaqlardır.




### Onları xoşbəxt gələcək gözləyirdi...

Ermənistan silahlı qüvvələri 2011-ci il martın 8-də Ağdam rayonunun Orta Qərvənd kəndində, öz evlərinin həyətində dostları ilə oynayan 9 yaşlı Fariz Bədəlovu snayperlə hədəfə alaraq qətlə yetirdilər. 2017-ci il iyulun 4-də Füzuli rayonu Alxanlı qəsəbəsində 14 aylıq Zəhra Quliyeva nənəsi Sahibə Quliyeva ilə birgə Ermənistan silahlı qüvvələri tərəfindən açılan atəşlər nəticəsində şəhid oldular. Atəşkəs dövründə 34 azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 14-ü şəhid oldu, 20-si yaralandı.

Ermənilərin uşaqlara qarşı aqressiyası Vətən müharibəsi günlərində də davam etdi - onlar döyüş bölgələrindən uzaqlarda yerləşən mülki əhalinin yaşayış yerlərini iriçaplı silahlardan atəşə tutdular. Azərbaycanın Tovuz, Gəncə, Bərdə, Tərtər, Mingəçevir şəhərlərinin Ermənistan ərazisindən raket atəşinə tutulması nəticəsində həlak olanların arasında xeyli azyaşlı vardı. Neçə-neçə uşaq isə ya bir, ya da hər iki valideynini, digər yaxın qohumlarını itirdi, atəş nəticəsində uçmuş evlərinin dağıntıları altında qalaraq ağır xəsarət aldılar.

Aqressiya qurbanı olan uşaqların səsi olmaq, onların hüquqlarını müdafiə etmək, təhlükəsizliyini təmin etmək və yaşadıqları ağrıların təkrarlanmaması üçün beynəlxalq həmrəylik nümayiş etdirmək hər kəsin mənəvi məsuliyyətidir. Çünki uşaqların qorunması yalnız humanitar bir vəzifə deyil, həm də bəşəriyyətin gələcəyinin qorunması deməkdir. Onların gözlərindəki qorxunu yenidən ümidə, kədəri sevincə, səssizliyi isə xoşbəxt gülüşlərə çevirmək bütün dünyanın ortaq məqsədi olmalıdır.

*Yeganə BAYRAMOVA*

# Sümükqıran qızdırma

## Denge virusu yenidən gündəmdədir...

İnsanların çoxu ağcaqanadları sadəcə narahatedici qonaqlar hesab etsə də, dünyanın bəzi bölgələrində bu kiçik həşəratlar təhlükəli virusların daşıyıcısıdır. Həmin viruslardan biri olan Denge qlobal səhiyyənin ən ciddi problemlərindən biri kimi yenə diqqət mərkəzində qalır. Denge qızdırması əsasən "Aedes" növünə aid ağcaqanadların sancması nəticəsində insana ötürülən virus infeksiyasıdır. Xüsusilə, tropik və subtropik iqlim qurşaqlarında yaşayan əhali üçün ciddi risk yaradır.

Son illər iqlim dəyişiklikləri, urbanizasiya və beynəlxalq səyahətlərin artması səbəbindən xəstəliyin yayılma coğrafiyası da nəzərəçarpacaq dərəcədə genişlənməkdədir. Bu günlərdə qonşu Gürcüstanda Denge virusuna yoluxma halı qeydə alınıb. Bu barədə İaşvili adına Uşaq Mərkəzi Xəstəxanasının tibbi direktoru, professor İvane Çxaidze məlumat verib. Ölkədə denge virusuna yoluxmuş bir pasiyent aşkarlanıb. Xəstənin vəziyyəti ilə bağlı ətraflı məlumat açıqlanmayıb.

Dünya səhiyyə mütəxəssisləri Denge qızdırmasını gələcəyin ən ciddi infeksion problemlərindən biri kimi qiymətləndirirlər. Qlobal istiləşmə və dəyişən ekoloji şərait virusu daşıyan ağcaqanadların daha geniş ərazilərə yayılmasına şərait yaradır. Bu fakt bir daha göstərir ki, bəzən insan həyatı üçün ən böyük təhlükələr gözlə görünməyən viruslardan və onların daşıyıcısı olan kiçik həşəratlardan qaynaqlana bilir.

**Dengenin ən təhlükəli cəhətlərindən biri...**

Mövzunu "Yeni Azərbaycan"a şərh edən infeksionist-həkim Vüqar Cavadzadə bildirib ki, xəstəliyin inkubasiya dövrü adətən 5-7 gün davam etsə də, bəzi hallarda iki həftəyə qədər uzana bilər: "Əsas simptomlar arasında qəfil üşütmə, bədən hərarətinin 39-41 dərəcəyədək yüksəlməsi, güclü baş ağrıları, eləcə də əzələ və oynaq ağrıları yer alır. Denge qızdırmasının ən təhlükəli cəhətlərindən biri xəstəliyin qısa müddət ərzində həyati təhlükə yaradan ağır formaya keçə bilməsidir. Yüksək hərarət, güclü baş ağrısı, gözdə hiss olunan ağrı, əzələ və oynaq ağrıları, dəri səpgiləri və ümumi halsızlıq kimi əlamətlər ilk günlərdə sadə görünsə də, xəstənin vəziyyəti qəfil pisləşə bilər.

Denge virusu təsadüfi olaraq "sümükqıran qızdırma" adlandırılmır. Xəstələrin əksəriyyəti əzələ və sümük ağrılarının o qədər şiddətli olduğunu bildirirlər ki, sanki bütün bədənləri eyni anda ciddi travmaya məruz qalmış kimi hiss edirlər. Bu ağrılar gündəlik fəaliyyətləri demək olar ki, mümkünsüz hala gətirir".




## Ölkəmiz üçün təhlükə var?

**Ağcaqanadların çoxalması əngəllənməlidir**

İnfeksionist bildirib ki, Denge virusunun yaranmasına səbəb olan Aedes ağcaqanadının ömrü bir həftədən dörd həftəyə qədərdir: "Müvafiq olaraq, bu ağcaqanadların çoxalmasının qarşısını almaq infeksiya riskini azalda bilər. Yetkin ağcaqanadlar həyatları boyu hər 1-2 saatda 1 dəfə, orta hesabla isə gün ərzində 40-50 dəfə qan yeməyi qəbul edirlər və xəstəlik ötürə bilirlər.

Aedes ağcaqanadlarının yumurta qoyması və çoxalması üçün ideal mühit isti və rütubətli yerlərdir və buna uyğun olaraq isti hava və yağışın çox olduğu Afrika və Asiya ölkələri patogen ağcaqanadların çoxalmasına meyllidirlər".

**Erkən aşkarlama vacibdir!**

Həkim qeyd edib ki, tibbi baxımdan ən çox narahatlıq doğuran məqam ağır Denge sindromunun inkişaf etməsidir: "Bu zaman damar keçiriciliyinin artması nəticəsində qan plazması damarlardan xaricə sızmağa başlayır, daxili qanaxmalar yarana bilir, arterial təzyiq kəskin şəkildə enir. Vaxtında tibbi müdaxilə göstərilmədiyi halda xəstənin həyatı ciddi təhlükə altına düşür. Xəstəliyin diaqnostikası klinik əlamətlərlə yanaşı laborator müayinələr vasitəsilə aparılır. Virusun müəyyənləşdirilməsi həmçinin qanda trombositlərin və digər göstəricilərin qiymətləndirilməsi xəstəliyin ağırlıq dərəcəsini təyin etmək üçün böyük əhəmiyyət daşıyır. Çünki erkən aşkarlama mümkün ağırlaşmaların qarşısının alınmasında mühüm rol oynayır".

**Virusdan qorunmağın yolları**

V.Cavadzadənin sözlərinə görə, hazırda Denge virusuna qarşı spesifik antiviral müalicə mövcud deyil: "Xəstənin vəziyyətinin stabilləşdirilməsi, maye balansının qorunması, hərarətin nəzarətdə saxlanılması və ağırlaşmaların qarşısının alınmasından vacibdir. Özbaşına dərman istifadəsi, xüsusilə, qanaxma riskini artıra bilən bəzi preparatların qəbulu təhlükəli nəticələrə səbəb ola bilər.

Denge qızdırmasından qorunmağın ən effektiv yolu ağcaqanad sancmalarının qarşısını almaqdır. Bu məqsədlə qoruyucu geyimlərdən istifadə olunması, həşərat əleyhinə vasitələrin tətbiqi, durğun su mənbələrinin aradan qaldırılması və riskli bölgələrə səyahət edən şəxslərin xüsusi ehtiyat tədbirlərinə əməl etməsi son dərəcə vacib hesab olunur".

**Azərbaycanda vəziyyət necədir?**

Səhiyyə Nazirliyinin Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzindən bildirilib ki, hazırda Azərbaycanda Denge qızdırmasına yoluxma halı qeydə alınmayıb.

Qeyd edilib ki, mərkəzin mütəxəssisləri tərəfindən xəstəliyə nəzarət və onun qarşısının alınması istiqamətində zəruri tədbirlər görülür: "Xəstəliyin əlamətləri olan şəxslər aşkar edilərsə, onların laborator müayinələrinin aparılması üçün Mərkəzdə bütün lazımi imkanlar mövcuddur. Eyni zamanda, xəstəliyin keçiriciləri olan ağcaqanadlar üzərində mütəmadi monitorinqlər aparılır. Hazırda ölkədə epidemioloji vəziyyət sabitdir və tam nəzarət altındadır. Qonşu ölkələrdən xəstəliyin ölkəmizə keçmə riski ilə bağlı narahatlığa əsas verən hər hansı faktor yoxdur. Əhaliyə tövsiyə edilir ki, rəsmi məlumatlara istinad etsinlər və yalnız səhiyyə qurumlarının açıqlamalarını nəzərə alsınlar".

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5359**
**Sifariş: 702**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova